AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# EHTİYAT DƏRSLİKLƏRİN HAZIRLANMASININ ÜMUMPEDAQOJİ MƏSƏLƏLƏRİ

## (METODİK TÖVSİYƏ)

BAKI – 2023

Metodik tövsiyə Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Şurasının 19 oktyabr 2021-ci il tarixli (3 nömrəli protokol) qərarı ilə nəşr olunur.

**Elmi redaktor:** **Akif Abbasov,**
*pedaqogika elmləri doktoru, professor*

**Rəyçilər:** **Hümeyir Əhmədov,**
*pedaqogika elmləri doktoru, professor*

**Piralı Əliyev,**
*pedaqogika elmləri doktoru, professor*

**Cəbrayılov İ.H., İbadova M.A. Ehtiyat dərsliklərin hazırlanmasının ümumpedaqoji məsələləri (metodik tövsiyə). Bakı: "CN POLİGRAFİYA", 2023, 66 səh.**

Metodik tövsiyədə ehtiyat dərslik anlayışının mahiyyətinə aydınlıq gətirilir, problem baxımından elmi-metodik ədəbiyyat, ehtiyat dərsliklərin struktur və məzmun məsələləri təhlil edilir. Tövsiyədə ehtiyat dərsliklərin pedaqoji-psixoloji xüsusiyyətləri də verilmiş və bu dərsliklərin hazırlanması, təkmilləşdirilməsi üçün müvafiq təkliflər irəli sürülmüşdür.

Metodik tövsiyə təhsil mütəxəssisləri, tədqiqatçılar və müəllimlər üçün nəzərdə tutulmuşdur.

**©ARTİ, 2023**

## MÜNDƏRİCAT

Səh.

GİRİŞ........................................................................ 4

1. EHTİYAT DƏRSLİK ANLAYIŞININ MAHİYYƏTİ............ 10

2. PROBLEM BAXIMINDAN MÖVCUD ƏDƏBİYYATA KONSEPTUAL YANAŞMALAR............ 17

3. EHTİYAT DƏRSLİKLƏRİN TƏHLİLİ........................ 27

4. EHTİYAT DƏRSLİKLƏRİN PEDAQOJİ VƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ.................................. 45

NƏTİCƏ................................................................. 57

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT......................... 62

# GİRİŞ

Azərbaycan müstəqillik əldə etdikdən sonra təhsil siyasətində, təhsilin struktur və məzmununda köklü dəyişikliklərin yaranması tədris proqramlarına, dərsliklərə, digər tədris resurslarının hazırlanmasına yanaşmalar da dəyişmiş, yeni metodoloji baxışlara əsaslanan standart və kurikulumların tətbiqi üçün zəruri tədbirlər həyata keçirilmişdir. Ötən müddət ərzində hazırlanmış dərsliklər bir neçə dəfə təkmilləşdirilmiş və zaman keçdikcə yeni dövrün tələblərinə uyğun olaraq dünya təcrübəsi öyrənilməklə yeni nəsil dərsliklərin hazırlanması məsələsi gündəmə gəlmişdir. XXI əsrin əvvəllərində, 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası"nın (Milli kurikulum), 2010-cu ildə "Ümumi təhsilin dövlət standartları və kurikulumları"nın və son illərdə bu sənədin yeni məzmunda hazırlanması dərslik yaradıcılığı ilə bağlı müasir baxışlar sisteminin daha dərindən araşdırılmasını xeyli aktuallaşdırmışdır.

Bu gün Azərbaycan Respublikasında təhsil sahəsində, o cümlədən məzmunla bağlı həyata keçirilən islahatlar ardıcıl və sistemli xarakter daşıyır. Belə ki, hələ 1999-cu ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış İslahat proqramı ölkəmizdə yeni təhsil quruculuğu sahəsində böyük imkanlar yaratdığı kimi, sonrakı illərdə ölkə prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında qəbul edilmiş qanunlar, dövlət proqramları, konsepsiyalar, strateji sənədlər də təhsilin davamlı inkişafına əlverişli zəmin yaratmışdır. Bir neçə

ildir ki, ümumtəhsil məktəbləri üçün alternativ dərsliklərin yaradılması problemi haqqında müzakirələr aparılır. Bu məsələnin də gündəmə gəlməsi dövlət başçısının, cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədi ilə bağlıdır. Bu sənədə əsasən şagird və müəllimlərin müvafiq dərslik seçiminin təmin edilməsi, habelə ümumi təhsil üzrə dərsliklərin elmi və elmi-metodik baxımdan təkmilləşdirilməsi üçün ehtiyat dərsliklərin hazırlanması tələbi irəli sürülmüşdür. Bu tələbə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti 24.11.2016-cı il 611 nömrəli sərəncamla ehtiyat dərsliklərin hazırlanması barədə sərəncam vermişdir. Bu tələbləri əsas götürərək Azərbaycan Respublikasının Təhsil İnstitutunun Tədris Resursları Mərkəzində müvafiq layihə həyata keçirilir.

Qeyd edək ki, ənənəvi dərsliklər nəşriyyatlarda hazırlanırdı. Yeni tələblərə görə ehtiyat dərsliklərin hazırlanması işi isə Azərbaycan Respublikasının Təhsil İnstitutuna həvalə edilmişdir.

Ehtiyat dərsliklərin hazırlanması proseduru bu günə qədər olan qaydalardan fərqli şəkildə həyata keçirilir. Bu baxımdan mərhələli prinsipin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Hazırda ehtiyat dərslikərin hazırlanması prosesinin bir qayda olaraq 5 mərhələli olması müəyyənləşdirilmişdir:

1) respublika üzrə müəllif seçimi;

2) ehtiyat dərsliklərin konsepsiyasının hazırlanması;

3)məzmunun təkmilləşdirilməsi;

4) dərslik komplektlərinin hazırlanması;

5) sınaq prosesi.

Bu, əlbəttə, müasir yanaşma baxımından əhəmiyyətlidir. Bu ardıcıllıq dərsliklərin elmi-pedaqoji baxımdan daha mükəmməl hazırlanmasına, nəzəri və praktik məsələlərin həllində innovativ metodologiyanın tələblərinə əməl olunmasına, şsgirdlərdə həyati bacarıqların formalaşdırılması üçün məzmunun ciddi şəkildə təkmilləşdirlməsinə əlverişli şərait yaradır.

Qeyd edək ki, istifadəyə yararlı və daxili ekspertizadan keçmiş dərsliklər (məktəbəhazırlıq qrupları üçün) tədris ilinin sonunda bir neçə məktəbdə məktəbəhazırlıq kurslarında ilkin sınaq prosesindən keçirilmişdir. Müvafiq düzəlişlər aparılmış, daha sonra respublika üzrə geniş sınaq prosesi təşkil olunmuşdur. Sınaqda iştirak etmiş siniflər ölkənin bütün şagird kateqoriyalarını əhatə etməklə reprezentativ seçim əsasında müəyyənləşdirilmişdir.

Qaydalara uyğun olaraq sınaq məktəbin bütün siniflərində deyil, təsadüfi seçilmiş konkret siniflərdə həyata keçirilir. Artıq birinci və ikinci siniflər üçün ehtiyat dərsliklər hazırlanmışdır.

Respublikamızda ehtiyat dərsliklərin sınaq prosesini əhatə edən şagird kontingentini aşağıdakı cədvəl üzrə təqdim edirik:

**Azərbaycan Respublikasında ehtiyat dərsliklərin sınaq prosesini əhatə edən şagird kontingenti (2019-2020-ci tədris ili üzrə)**

**Cədvəl 1.**

| Bakı şəhəri və kənd rayonları üzrə | Məktəb sayı | | Sinif sayı | | Şagird sayı | |
|---|---|---|---|---|---|---|
| Bakı şəhəri üzrə I və II siniflər | I sinif | II sinif | I sinif | II sinif | I sinif | II sinif |
| | 47 | 45 | 71 | 45 | 2035 | 1441 |
| Rayonlar üzrə I və II siniflər | 50 | 105 | 51 | 105 | 1193 | 2628 |
| Cəmi | 97 | 150 | 122 | 150 | 3228 | 4069 |

Cədvəldən göründüyü kimi, ümumilikdə 247 məktəb, 272 sinif, 7297 şagird ehtiyat dərsliklərin sınaq prosesinə cəlb olunmuşdur.

2019-2020-ci tədris ilində eyni zamanda məktəbəhazırlıq qrupları üçün yeni dərsliklərin kütləvi tətbiqi həyata keçirilir. Bütün bunları qeyd etməklə bərabər, həm də bir sıra suallar meydana çıxır. Ehtiyat dərsliklər nə üçün lazımdır, yaxud onun hazırlanmasında məqsəd nədir? Bu dərsliklərin ənənəvi dərsliklərdən fərqli xüsusiyyətləri hansılardır? Ehtiyat dərsliklər necə hazırlanmalı və ya onun məzmunu necə olmalıdır? və s. Bu kimi suallar pedaqoji elmlər qarşısında ciddi vəzifələr qoyur. Məhz elmi-pedaqoji tədqiqatlar nəticəsində qoyulan suallara daha konkret cavablar vermək,

doğru nəticəyə gəlmək və dərslik yaradıcılığı ilə bağlı perspektivlərə aydınlıq gətirmək, strateji istiqamətləri müəyyənləşdirmək mümkündür.

Ümumiyyətlə, dərslik problemi ilə bağlı bu vaxtadək xeyli tədqiqatlar aparılmışdır. Bu məsələ həmişə pedaqoq alimlərin diqqət mərkəzində olmuşdur. Lakin Azərbaycanda dərslik yazmaq, bu istiqamətdə araşdırma aparmaq məsələsi daha çox ölkəmizin müstəqilliyi dövrü ilə bağlıdır.

Son illərdə dərslik yaradıcılığı ilə bağlı araşdırma aparan tədqiqatçı alimlərdən Y.Ş.Kərimov, A.N.Abbasov, Ə.M.Abbasov, A.X.Hacıyev, Q.Q. Qranik, S.V. Popov, V.V. Krayevski, M.V. Yakuşev, A.K.Kusainov (qazax alimi) və başqalarının əsərləri müasir yanaşmalar baxımından diqqəti cəlb edir.

Lakin ehtiyat dərsliklərin hazırlanması mexanizmləri hələlik fundamental araşdırma kimi tədqiqat obyekti olmamışdır. Araşdırmalar göstərdi ki, dərsliklərin məzmun və metodik aparatının təkmilləşdirilməsi təlim prosesinin müəllimdən asılılığının aradan qaldırılmasında mühüm rol oynayır. Yəni mükəmməl nəzəriyyə məsələnin praktik həllində açar funksiyasını yerinə yetirir. Bu, həm də pedaqogikada nəzəriyyə və praktikanın vəhdəti prinsipinin müasir yanaşmalar əsasında tətbiqi zəruriliyini əsaslandırır. Ona görə də dərslik özü bir nəzəri mənbə kimi daim təkmilləşdirilməli, dövrün, zamanın, həyatın tələblərini, şagirdlərin inkişaf xüsusiyyətlərini əks etdirməlidir.

Metodik tövsiyənin giriş, nəticə hissələrini, 1-ci, 2-ci, 3-cü bölmələrini p.e.d., prof. İ.H. Cəbrayılov, 4-cü bölməsini

(Ehtiyat dərsliklərin pedaqoji və psixoloji xüsusiyyətləri) isə p.ü.f.d., dos.M.A.İbadova hazırlamışlar.

Metodik tövsiyədə əksini tapmış elmi nəticələrdən ümumtəhsil məktəbləri üçün dərsliklərin, dərs vəsaitlərinin, digər tədris resurslarının hazırlanmasında istifadə oluna bilər. Tədqiqatın praktik nəticələri, eyni zamanda ali məktəblərdə pedaqojiyönlü fakültələrdə təlim prosesində, ixtisasartırma, təkmilləşmə kurslarında tətbiq üçün əhəmiyyətlidir. Bu nəticələrdən dərslik yaradıcılığı ilə məşğul olan mütəxəssislər də faydalana bilərlər.

# 1. EHTİYAT DƏRSLİK ANLAYIŞININ MAHİYYƏTİ

Ehtiyat dərslik anlayışı son illərdə işlənməyə başlamış və artıq pedaqoji anlayış kimi status qazanmışdır. Ehtiyat dərslik anlayışı barədə şərh verməzdən əvvəl ümumiyyətlə, dərslik anlayışına münasibət bildirmək istəyirik.

"Ümumi təhsil sistemində dərslik siyasəti" sənədində göstərilir ki, dərslik – konkret fənn üzrə tədris planı və proqram əsasında hazırlanmış nəzəri və praktik biliklərin əsaslarının sistemli və anlaşıqlı şəkildə izah olunduğu əsas vəsaitdir.

Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vəsaitlərin hazırlanmasının yeni qaydalarında dərslik anlayışına belə tərif verilir: "Dərslik -sistemli materialları özündə ehtiva edən və təhsil proqramına (kurikuluma) daxil olan fənnin (inkişaf sahəsinin) tədrisi müddətində müəyyənləşdirilmiş məzmun standartlarının təhsilalanlar tərəfindən mənimsənilməsini təmin edən tədris- metodik vasitə".

"Pedaqoji ensiklopediya lüğəti"ndə isə dərslik anlayışının mahiyyəti barədə belə bir fikir ifadə olunub: "Dərslik elm və mədəniyyətin müasir nailiyyətləri səviyyəsində müəyyən bir sahədə biliyin əsaslarını sistematik şəkildə təyin edən bir kitab; tədris ədəbiyyatının əsas və aparıcı növüdür. Dərslik müəyyən yaş və sosial qrupların təlim, tərbiyə və inkişaf məqsəd və vəzifələrinə cavb verir".

Tədqiqatçı alim M.V.Yakuşev öz yanaşmasında dərsliyin ümumi xarakteristikası göstərmişdir: "Dərslik, tələbələrin

(təhsilalanların-İ.H.Cəbrayılov) müəyyən bir məlumata yiyələnmələri, təhsil və idrak işlərini idarə etmələri üçün nəzərdə tutulmuş bir kitabdır".

A.A.Kuznetsov və E.V.Çernobay öz araşdırmalarında dərsliyi tədris-metodik kompleksindən ayırmağı məqsədəuyğun saymır və yazırlar ki, dərslik tədris-metodik kompleksin əsasını təşkil edir. Burada digər təlim vasitələrinin, yəni tədris-metodik kompleksin tərkib hissələrinin inteqrasiyası təmin olunur, ən vacib məsələlər qruplaşdırılır. Dərsliyin bütün komponentləri tədris-metodik kompleksinin strukturunda əksini tapmalıdır.

Araşdırmalar göstərir ki, dərslik problemi ilə bağlı tədqiqatlarda fərqli yanaşmalara rast gəlinsə də əsasən ümumi bir fikir eynidir: Yəni dərslik hər bir təhsilalan üçün proqram əsasında yazılmış bilik mənbəyidir.

Tədqiqatçı alim Ə.M. Abbasovun dərslik problemi ilə bağlı yanaşmaları xüsusi maraq doğurur: "Dərslik öz mahiyyət və məzmununa, funksiyalarına görə digər vəsaitlərdən, kitablardan fərqlənir. Uzun zaman ona məlumat mənbəyi kimi baxılsa da, illər keçdikcə dərsliyin struktur elementlərinə şagirdlərin bacarıq və vərdişlərini formalaşdırmaq üçün lazım olan təlim materialları daxil edilmişdir. Bu dəyişmə, təkmilləşmə onun əhəmiyyətinin və rolunun artması ilə baş vermişdir. Xüsusilə, indiki dövrdə dərsliyin funksiyasında daha əhəmiyyətli dəyişikliklər etmək, onun hazırlanmasını ciddi pedaqoji problem kimi tənzimləmək, elmi, nəzəri əsaslarda başa çatdırmaq tələb olunur".

Dərslik haqqında tədqiqatçı alim A.X.Hacıyev də fikirlərini əsaslandıraraq belə ifadə etmişdir: "Məktəb dərslikləri fənn üzrə bilik və bacarıqların sistemli şərhi verilmiş əsas tədris resursu olub, nəşri rəsmi şəkildə təsdiq edilməlidir. Müasir dərslik təhsil standartlarında nəzərdə tutulmuş bilik və bacarıqların reallaşmasını təmin edən ən mühüm informasiya qaynağı olub təlim prosesinin təşkilində başlıca vasitə rolunu oynayır".

Göründüyü kimi, dərslik anlayışı haqqında müxtəlif fikirlər vardır. Lakin hədəfə istiqamətlənmə baxımından fikirlər arasında ümumi oxşarlığı da qeyd etməmək olmaz. Mövcud araşdırma və təcrübədən çıxış edərək dərslik anlayışı haqqında belə bir ümumiləşdirilmiş fikir də söyləmək fikrimizcə, yeni yanaşmalar baxımından məqsədəuyğun sayıla bilər: Dərslik – konkret fənn üzrə müvafiq standartlara uyğun, tədris planı və proqram əsasında hazırlanmış nəzəri və praktik bilik və bacarıqların əsaslarının sistemli və anlaşıqlı şəkildə şərh olunduğu əsas vəsaitdir.

Bu gün dərslik problemini ənənəvi metodlarla həll etmək mümkün deyil. Real gerçəklik budur ki, həyatın tələbləri xeyli yeniləşmişdir. Belə bir dövrdə cəmiyyətin və şəxsiyyətin rəqabətəqabilliyinin artması, elm və təhsilin paradıqmalarının dəyişməsi, əqli mülkiyyətini qoruya bilən insan kapitalının formalaşması məsələlərinin gündəmə gəlməsi hər kəsi düşündürməlidir. Bütün bunlar həm də təhsilin məzmunu, metod və vasitələrinə, təlim-tərbiyə işinin təşkilinə, eyni

zamanda dərslik məsələsinə yeni baxış, yeni yanaşma tələb edir.

Bu baxımdan ehtiyat dərsliklərin hazırlanması və tətbiqi zəruridir.

Aydın məsələdir ki, zaman keçdikcə bilik mənbələri də artır. Yeni informasiya vasitələri meydana çıxır.Yeni texnologiyaların inkişafı təhsilalma formalarına da təsir edir və tədricən onlayn tədris məsələsi gündəmə gəlir. Tədqiqatlar göstərir ki, gələcəkdə hibrid təhsilin (yarı əyani, yarı onlayn) tətbiqi məsələsi daha da aktuallaşacaq. 2020-ci ilin birinci yarısında yaşadığımız pandemiya şəraitində təhsilin təşkilində yeni formaların tətbiqi nümunələri bunu aydın şəkildə göstərdi. Bu baxımdan dərslik hazırlığı məsələsi də hər zaman üçün əhəmiyyətini saxlayacaq, lakin yeni şəraitə, yeni tələblərə uyğunlaşdırılacaqdır.

Ehtiyat dərslik hazırda yeni prinsiplərlə icra olunan bir layihədir. Onun mahiyyəti "İbtidai siniflər üçün Azərbaycan dili və riyaziyyat fənləri üzrə ehtiyat dərslik konsepsiyası"nda izah edilmişdir.

Burada ibtidai siniflər üçün Azərbaycan dili və riyaziyyat fənləri üzrə ehtiyat dərsliklərin ənənəvi dərsliklərdən fərqli xüsusiyyətləri aşağıdakı kimi göstərilmişdir:

**Məzmun baxımından:**

1. Məktəbəhazırlıq pilləsində ilkin riyazi və nitq bacarıqlarının səviyyəsi dünya səviyyəsi həddində qəbul olunacağı halda I sinif dərsliklərinin nisbətən yüksək səviyyədən başlanması.

2. İbtidai təhsil səviyyəsində şagirdlərə veriləcək riyazi savad və nitq bacarıqları üzrə məzmun standartlarının inkişaf etmiş ölkələrdə qəbul olunmuş səviyyəyə uyğunlaşdirilması.

3. Məzmunun TİMS və PİRLS beynəlxalq qiymətləndirmə standartlarına uyğunlaşdırılması.

**Təlim prosesi:**

1. Təlim prosesinin müəllimdən asılılığını azaltmaq üçün dərsliklərin məzmun və metodik aparatının təkmilləşdirilməsi.

2. Valideynlər üçün tövsiyələr vasitəsilə onların təlim prosesinə daha effektli cəlb olunması.

3. Formativ qiymətləndirmənin forma və qaydalarının reallığa maksimum yaxınlaşdırılması.

**Dəstək:**

1. Azərbaycan dili və riyaziyyatın tam inteqrativliyi.

2. Yüksək bədii tərtibat, peşəkar illüstrasiyalar və məzmunun sadə formada təqdim edilməsi.

3. Rəqəmsal dəstək.

Göründüyü kimi, ibtidai siniflər üçün Azərbaycan dili və riyaziyyat fənləri üzrə ehtiyat dərsliklərin fərqli xüsusiyyətləri 3 istiqamət üzrə (məzmun, təlim prosesi, dəstək baxımından) qruplaşdırılmışdır. Qeyd olunan xüsusiyyətlər bu dərsliklərin üstünlüyünün göstəricisidir. Problemə ümumpedaqoji cəhətdən yanaşaraq bütövlükdə ümumtəhsil məktəbləri üçün hazırlanan dərsliklərin fərqli xüsusiyyətləri nə

ola bilər? sualı da maraq doğurur. Məlumdur ki, hər bir fənnin özünəməxsus cəhətləri olduğuna görə həmin fənn üzrə hazırlanan dərslik də o fənnin xüsusiyyətlərini əks etdirməli, onun ideyalarının daşıyıcısına çevrilməlidir. Lakin dərsliklər arasındakı tədris predmetinə görə fərqliliyə baxmayaraq onları birləşdirən cəhətlər də çoxdur. Bu, ümumpedaqoji məsələlərdir. Problemə bu baxımdan yanaşaraq ümumtəhsil məktəbləri üçün ehtiyat dərsliklərin mühüm pedaqoji xüsusiyyətləri kimi aşağıdakıları göstərmək olar:

**Məzmun xüsusiyyəti:**

1. Məktəbəhazırlıq ümumi təhsilin birinci mərhələsi olduğu üçün məzmunun formalaşdırılmasında və siniflər üzrə dərslik materiallarının bölüşdürülməsində sadədən mürəkkəbə, asandan çətinə prinsipinin nəzərə alınması.

2. Dərsliyin məzmununda ideya ardıcıllığının nəzərə alınması və inkişaf etdirilməsi.

3. Ümumi təhsil pilləsində şagirdlərə veriləcək bacarıqlar üzrə məzmun standartlarının rəqabətəqabil cəmiyyətin tələblərinə uyğunlaşdırılması və daha da inkişaf etdirilməsi.

4. Məzmunun beynəlxalq təcrübəyə, müasir təlim texnologiyalarına, yeni metodologiyaya əsaslanması.

5. Məzmunun TİMS və PİRLS beynəlxalq qiymətləndirmə standartlarına uyğunlaşdırılması.

**Təlim prosesinə aid xüsusiyyət:**

1. Təlim prosesinin müəllimdən asılılığını azaltmaq üçün dərsliklərin məzmun və metodik aparatının təkmilləşdirilməsi.

2. Valideynlər üçün tövsiyələr vasitəsilə onların təlim prosesinə daha effektli cəlb olunması.

3. Formativ qiymətləndirmənin forma və qaydalarının reallığa maksimum yaxınlaşdırılması.

**Dəstək:**

1. Müxtəlif müvafiq fənlər üzrə dərsliklərin  tam inteqrativliyi

2. Yüksək bədii tərtibat, peşəkar illüstrasiyalar və məzmunun sadə formada təqdim olunması, bununla da daha oxunaqlı, görünüş və dizayn ilə şagirdin motivasiyasının qaldırılmasına xidmət etməsi;

3. Rəqəmsal dəstək**.**

Bu müddəalarda əksini tapmış fikirlərdən aydın olur ki, müasir dövrdə dərsliyin məzmununun konseptual şəkildə yeniləşməsi cəmiyyətin tələbatından doğur. Bu gün yetişən nəsillər zəruri həyati bacarıqlara, səriştələrə, dəyərlərə yiyələnməklə beynəlxalq qiymətləndirmə proqramının tələblərini ödəyə və gələcəkdə əmək bazarında rəqabətə tab gətirə bilərlər.

## 2. PROBLEM BAXIMINDAN MÖVCUD ƏDƏBİYYATA KONSEPTUAL YANAŞMALAR

Ehtiyat dərsliklər problemi yeni olduğu üçün bu barədə ədəbiyyata da az rast gəlinir. Bu məsələ haqqında dövlət sənədlərində, o cümlədən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (24 oktyabr 2013) bəhs edildikdən sonra işlərin həyata keçirilməsi prosesi sürətləndirilmişdir. Burada "kurikuluma əsaslanan yeni dərsliklərin yaradılması, şagird və müəllimlərin müvafiq dərslik seçiminin təmin edilməsi (1.2.2.)" tələbinin qoyulması ehtiyat dərslik probleminin həlli məsələsinə daha ciddi yanaşılmasının vacibliyini göstərir.

Azərbaycan Respublikasının Təhsil İnstitutunda Tədris Resursları Mərkəzi yaradıldıqdan sonra bu mərkəzə ehtiyat dərsliklərin hazırlanması səlahiyyətləri verilmiş və müvafiq mütəxəssislərdən ibarət işçi qrupu ehtiyat dərslik konsepsiyasını hazırlamışdır. Artıq "İbtidai siniflər üçün Azərbaycan dili və riyaziyyat fənləri üzrə ehtiyat dərslik konsepsiyası" hazırlanaraq çap edilmişdir. Bu konsepsiya 108 səhifədən ibarətdir. Sənədin başlanğıc hissəsində ehtiyat dərsliklər haqqında ümumi məlumat verilmiş, dərslik komplektlərinin mahiyyətinə aydınlıq gətirilmişdir. Dərslik komplektinin komponentləri aşağıdakı kimi izah edilir: şagird kitabı (dərslik), iş dəftəri, metodik vəsait və valideynlər üçün tövsiyələr. Aydın məsələdir ki, bilavasitə şagirdlər üçün nəzərdə tutulan tədris materialları şagird kitabı adlandırılan dərslikdə verilir. Komplektin digər  komponentləri isə dərsliyin məzmunu ilə

bağlı olub o da ilk növbədə şagirdlərin bilik və bacarıqlarının dərindən formalaşdırılması və inkişafına xidmət edir. Eyni zamanda həm müəllimlər, həm də valideynlər üçün müvafiq tövsiyələrin verilməsi də əhəmiyyətlidir. Belə ki, müəllimlər bu yolla- nəzəri və praktik məsələləri dərindən mənimsəyir, valideynlər pedaqoji cəhətdən maariflənir və nəticə etibarilə tədrisin səmərəliliyinin artırılması imkanları genişlənir . Sənəddə Azərbaycan dili və riyaziyyat fənləri üzrə verilmiş konsepsiya struktur baxımından mahiyyətcə uyğun olsa da, onlar arasında müəyyən fərqlər də vardır. Azərbaycan dili dərsliyinin konsepsiyası 8, riyaziyyat dərsliyinin konsepsiyası isə 7 bölmə üzrə əhatə olunub. Hər iki konsepsiyada problem baxımından dünya təcrübəsinə də yer ayrılıb, dilin və riyaziyyatın öyrənilmə texnologiyası barədə fikirlər ümumiləşdirilmişdir.

Konsepsiyada göstərilir ki, şagirdin iş dəftərindəki fəaliyyətinə əsasən formativ qiymətləndirmə, təlim prosesinin monitorinqi və şagird irəliləyişlərinə nəzarətin həyata keçirilməsi nəzərdə tutulur. Dərslik komplektinin tərkib hissəsi olan metodk vəsait isə iki hissədən (ümumi, yəni giriş və dərslərin şərhi hissəsi) ibarət olmaqla konseptual məsələləri əhatə edir, metodik vəsaitin struktur mexanizminin ardıcıllığını göstərir. Ümumi hissədə dərsliyin məzmun-struktur və metodoloji konsepsiyası verilir. Belə ki, ümumi illik planlaşdırma, məzmun standartlarının şərhi, məzmun standartlarının bölmələr və fəsillər üzrə reallaşma dinamikası (cədvəl-

də), bacarıqların səviyyəsi, tətbiq edilən təlim texnologiyaları, diferensial təlim üsulları, əlavə tədris resursları, qiymətləndirmə konsepsiyası bu hissədə əksini tapır. Müəllimlər üçün metodik vəsaitə verilən tələblərdən biri də budur ki, hər bir bölmənin girişində bölmədəki tədris materiallarının icmalı və dərslik komponentləri üzrə bölmənin məzmun xəritəsi (fəsil, dərs, standart, səhifə və sair) verilməlidir. Hər bir dərs üzrə mövzunun şərhində aşağıdakı məsələlər öz əksini tapmalıdır:

-standart üzrə təlim nəticəsi;

- dərs üçün lazım olan resurslar;

-motivasiya üçün tövsiyələr;

-təlim texnologiyası üzrə tövsiyələr;

-təlim prosesində adətən, şagirdlərin çətinlik çəkdikləri məqamları aradan qaldırmaq istiqamətində tövsiyələr;

-tapşırıqların cavabları və onlarla iş üzrə tövsiyələr;

-diferensial təlim üzrə tövsiyələr;

-formativ qiymətləndirmə üsulları üzrə tövsiyələr və təlim nəticəsinin reallaşma səviyyəsini qiymətləndirmək üçün deskriptorlar.

Konsepsiyanın məzmunundan aydın olur ki, dərslik kompleksinin tərkib hissəsi kimi metodik vəsaitdə bu məsələlərin verilməsi zəruridir. Eyni zamanda valideynlər üçün aşağıdakı istiqamətdə müvafiq tövsiyələrin hazırlanması məqsədəuyğun sayılmalıdır:

- uşağın məktəbə hazırlığı üzrə tövsiyələr;

-uşağın evdə mütəmadi olaraq psixoloji testləşdirilməsi;

-müəllim fəaliyyətinə dəstək;

-uşağın öyrənmə fəaliyyətinin psixoloji-didaktik əsaslarına dair tövsiyələr. Göründüyü kimi, ehtiyat dərslik konsepsiyasında müasir dövrün tələblərinə uyğun yeni yanaşmalar nəzərə alınmış, eyni zamanda valideynlərin pedaqoji maariflədirilməsinə xüsusi əhəmiyyət verilmişdir.

İbtidai siniflər üçün Azərbaycan dili dərsliyi konsepsiyasının strukturu aşağıdakı bölmələrin ardıcıllığı ilə əksini tapmışdır (10):

**1. Dil və nitq.**

**2. Dil tədrisində yanaşma və metodlar (tarixi-nəzəri icmal).**

**3. Orta məktəbdə dil tədrisinin məqsədləri.**

**4. Erkən yaşlarda nitq bacarıqlarının formalaşması və inkişafı: şifahi nitqdən yazılı nitqə.**

**5. I sinifdə nitq bacarıqlarının mənimsədilməsi (məzmun standartlarının müqayisəli analizi**):

5.1. Dinləmə və danışma.

5.2. Söz ehtiyatı.

5.3. Oxuyub-anlama:

• Oxu texnikası və qavrama

• Mətn tərtibatının qavramaya təsiri

• Yazılı nitq vizual nitq kontekstində

• Dünya təcrübəsi və milli kurikulumda Azərbaycan dili üzrə məzmun standartları

• Sinifdənxaric oxu.

5.4.Yazı:

• Dünya təcrübəsi

• Yazı texnikasına (hüsnxətə) müasir baxış

• Milli kurikulumda yazı standartları

5.5. Dil qaydaları.

**6. Nitq bacarıqlarının mətn əsasında tədrisi:**

• Mətnlə bağlı çalışma modelləri

**7. Dərsliyin məzmun və struktur konsepsiyası:**

• Dərsliyin məzmun vahidləri və onların saatlar üzrə bölgüsü

• Bölmə, fəsil, dərs:məzmun və kompozisiya

• Fəndaxili və fənlərarası əlaqə

• Çalışma modellərinin müxtəlifliyi

• Diferensial təlim

**8. Qiymətləndirmə.**

Qeyd etdiyimiz hər bir bənd üzrə konsepsiyada məsələnin mahiyyəti nəzəri baxımdan şərh edilməklə yanaşı, həm də konkret nümunələrlə izah edilmişdir. Bu konsepsiya dərslik müəllifi üçün müəyyən mənada kompas rolunu oynayır. Hər bir məsələnin ardıcıl, həm də detallara varmaqla əsaslandırılması dərsliyin mükəmməl hazırlanmasına geniş imkanlar yaradır.

İbtidai siniflər üçün Azərbaycan dili dərsliyi konsepsiyasının sonunda dərslik materialları üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsi mexanizmi əksini tapmışdır. Burada diaqnostik və formativ qiymətləndirmənin aparılma texno-

logiyası əsaslandırılmış və bu yeni yanaşmanın üstün cəhətləri göstərilmişdir. Bu cəhətlər aşağıdakı şəkildə izah edilə bilər:

1. Araşdırma və təcrübə göstərir ki, qiymətləndirmə təlim nəticəsinin şagirddən tələb etdiyi bütün parametrləri özündə əks etdirməlidir.

2. Rubrikləri (parametrləri) asandan çətinə doğru sıralamaqla şagirdin səviyyəsi müəyyənləşdirilə bilər.

3. Əsaslandırılmış yeni elmi-pedaqoji yanaşmalar şagirdin səviyyəsini müəyyənləşdirməklə bərabər, onun bacarıqlarını müvafiq meyar üzrə hərtərəfli qiymətləndirməyə imkan verə bilər.

4. Açıqlamalar konkret olduqda rubrik müəllim üçün anlaşıqlı olur. Beləliklə, o, görəcəyi işi aydın təsəvvür edir və qiymətləndirmə zamanı çətinlik çəkmir.

İbtidai siniflər üçün Azərbaycan dili dərsliyi konsepsiyasında qeyd etdiyimiz məsələlərə diqqət yetirilmişdir. Bu isə həm dərslik müəllifi, həm də yeni konsepsiyaya uyğun hazırlanmış ehtiyat dərsliklərlə işləyən fənn müəllimi üçün metodik istiqamət kimi əhəmiyyətlidir. Araşdırmalar göstərir ki, hər zaman olduğu kimi müasir dövrdə də tədrisin səmərəliliyinin artırılması üçün konseptual ideyaların tədqiqi, bu ideyaların tətbiq olunması, fənn müəllimlərinə çatdırılmasına böyük ehiyac vardır.

İbtidai siniflər üçün riyaziyyat fənni üzrə ehtiyat dərslik konsepsiyasında isə ümumi strukur bir qədər fərqlidir. Burada ilk növbədə müasir riyazi təhsilin əsas prinsipləri verilmiş və bu bölməyə aşağıdakı məsələlər daxil edilmişdir:

1.1. TİMS və PİSA qiymətləndirmələrində yüksək nəticə göstərən ölkələrdə riyazi təhsil;

1.2. TİMS-2025 çərçivə sənədində ölçülən riyazi bacarıqlar;

1.3. Yüksək nəticə göstərən ölkələrdə ibtidai riyazi təhsilin qısa məzmunu və bu ölkələrdə riyazi təhsilə yanaşmaların səviyyəsi.

Bu konsepsiyanın ikinci bölməsi Azərbaycan dili dərsliyi konsepsiyasının müvafiq bölməsinə əsasən uyğundur. İkinci bölmə Azərbaycan dili dərsliyi konsepsiyasında “Dil tədrisində yanaşma və metodlar”, riyaziyyat dərsliyi konsepsiyasında isə “Təlim yanaşmaları” adlanır. Amma hər bir fənnin xarakterik xüsusiyyətinə uyğun olaraq bölmələrin şərhində fərqliliyin olması təbiidir.

Riyaziyyat dərsliyi konsepsiyasının sonrakı bölmələrində aşağıdakı məsələlər əksini tapmışdır:

1. Məzmun xətləri üzrə iş texnologiyası, fəaliyyət xətlərinin gözlənilməsi prinsipləri;

2. Dərslikdə konseptual anlama, problem həlli üçün vizuallaşdırma və fərqli simvollardan istifadə (4.1. Konkret→təsviri→ mücərrəd metod; 4.2. Lentşəkilli diaqram; 4.3. Ədəd bağı; 4.4. Mərtəbə qiyməti sxemi; 4.5. Sıra modeli)

3. Qiymətləndirmə prinsipləri və tapşırıq növləri;

4. Dərsliyin mövzular üzrə quruluşu;

5. I sinif üzrə illik planlaşdırma.

Bu konsepsiyada da dünya təcrübəsi verilmiş, Sinqapur, Cənubi Koreya, Çin, Finlandiya, İngiltərə və digər ölkələrdə riyaziyyatın tərdisinin səciyyəvi xüsusiyyətləri geniş əksini tapmışdır. İbtidai siniflər üçün Azərbaycan dili dərsliyi konsepsiyasında isə bu məsələlər ümumiləşdirilmiş şəkildə təqdim olunmuş, xarici ölkələrin müvafiq məzmun standartları müqayisəli şəkildə verilmişdir. Yaxşı olardı ki, dərslik konsepsiyası hazırlanarkən konsepsiyanın mahiyyətcə özünə, onun struktur elementlərinə, problemlərin şərh ardıcıllığına yanaşmada elmi-pedaqoji prinsip kimi vahidlik prinsipi nəzərə alınsın. Bu baxımdan bütövlükdə ümumi təhsil pilləsi üçün çərçivə sənədi kimi konseptual yanaşmaları əks etdirən ümumi dərslik konsepsiyasının hazırlanması da yaxşı olardı.

Ümumiyyətlə, bu gün ehtiyat dərslik probleminin həlli üçün hazırlanmış "İbtidai siniflər üçün Azərbaycan dili və riyaziyyat üzrə ehtiyat dərslik konsepsiyası"nın elmi-nəzəri və praktik baxımdan dəyərliliyini diqqətə çatdırmaqla, onu müvafiq dərsliklərin yazılması üçün əhəmiyyətli hesab edir, müasir pedaqogika və təhsil tariximizin mühüm mənbələrindən biri kimi qiymətləndiririk.

Ehtiyat dərsliklərin hazırlanması məsələləri ilə bağlı kütləvi informasiya vasitələrində bəzi təhsil mütəxəssislərinin, ekspertlərin söylədikləri fikirlər problemə innovativ yanaşma baxımından əhəmiyyətlidir. Mövcud təcrübədən əldə olunan qənaət budur ki, ehtiyat dərsliklər müəllimlərlə bağlı

tədris prosesində bəzi yanlış yanaşmaları üzə çıxarmışdır. Aydın olmuşdur ki, müəllimlərin əksəriyyəri Azərbaycan dilinin tədrisi prosesində şagird tapşırığı kimi daha çox hüsnxətə fikir verir. Beləliklə, şagirdlərin oxuyub-anlamasına az diqqət ayrılır. Bu da belə bir fikri söyləməyə əsas verir ki, qavrama, anlama, tənqidi düşünmək kimi bacarıqları lazımi səviyyədə formalaşdırmayan, əsasən ənənəvi bacarıqlara daha çox üstünlük verənlər hələ də vardır. Ona görə də ehtiyat dərsliklərlə işləyən müəllimlər üçün müvafiq ixtisasartırma təlimlərinin təşkili, bu istiqamətdə ciddi müzakirələrin aparılması əhəmiyyətlidir. Araşdırmalar və məktəb təcrübəsi göstərir ki, ehtiyat dərsliklər müvafiq normalara uyğun təlim yükünü tənzimləyir, valideynləri də təhsil prosesinin fəal iştirakçısına çevirir. Bu baxımdan müasir dövrdə beynəlxalq təcrübədə özünü doğrultmuş yanaşmaları əsas götürərək şagirdlərdə tənqidi düşüncə bacarıqlarının, kreativliyin formalaşdırılması yollarının təşviqi vacibdir.

Tədqiqatlar göstərir ki, bu gün həyat reallıqları nəzərə alınmalıdır. Beynəlxalq qiymətləndirmədə nəzərə alınan bacarıqların inkişaf etdirilməsinə daha çox diqqət yetirildiyi üçün ehtiyat dərsliklərdə də bu prinsipin nəzərə alınması məqsədəuyğundur.

Təhsil eksperti, millət vəkili Etibar Əliyev qeyd edir ki, ehtiyat dərslik dünyanın bir sıra ölkələrində tətbiq olunur. Bütün siniflər üzrə çap olunan dərsliklərlə yanaşı alternativ dərsliklər də nəzərdə tutulur. Buna həm ehtiyat, həm də alternativ dərslik demək olar. Təcrübə göstərir ki, inkişafın

asılı olduğu məsələlərdən biri dərsliklərlə bağlıdır. Dərslik məsələsinə yeni yanaşma həm də bu sahədəki monopoliyanın qarşısını ala bilər. Ehtiyat dərsliklərin yaradılmasında əsas məqsəd şagirdlərin idrak qabiliyyətlərinin genişlənməsi, tənqidi təfəkkürünün inkişaf etdirilməsidir.

Ehtiyat dərsliklərin yaradılması məsələsinə təhsil eksperti Nadir İsrafilov belə münasibət bildirmişdir: "Bəzən ayrı-ayrı siniflər və fənlər üzrə tender müsabiqəsinə bir dərslik təqdim olunur və ola bilər ki, heç o da təqdim olunmasın. Təqdim olunan dərslik və ya dərsliklər dərsliyə verilən tələbləri, prinsipləri ödəməsə də, müvafiq standartlara uyğun gəlməsə belə, onu nəşr edib yerlərə göndərmək zərurəti meydana çıxır. Bu və buna bənzər hallar baş verdiyi təqdirdə, vəziyyətdən çıxış yolu kimi alternativ olaraq ehtiyat dərsliklər dövriyyəyə buraxıla bilər. Hesab edirəm ki, təkcə ibtidai siniflər üçün deyil, digər siniflər üçün də mərhələlər üzrə ehtiyat dərsliklərin hazırlanmasına ehtiyac var".

## 3. EHTİYAT DƏRSLİKLƏRİN TƏHLİLİ

Araşdırmalar göstərdi ki, hazırda respublikamızın bir sıra şəhər və rayonlarının ümumtəhsil məktəblərində ehtiyat dərsliklərdən istifadə olunur. Həmin dərsliklərdən istifadə həm də sınaq məqsədi daşıyır. Əgər bu dərsliklər mövcud, istifadədə olan dərsliklərlə müqayisədə üstünlük qazanarsa, o zaman həmin dərsliklərin kütləvi olaraq istifadəsi üçün imkan yaranacaqdır. Ona görə mövcud vəziyyəti öyrənmək üçün həmin dərsliklərin və ümumiyyətlə, dərslik komplektinin nəzəri təhlilinə də ehtiyac vardır.

İlkin olaraq Ülkər Nurullayeva, Nuriyə Allahverdiyeva, İradə Bayramova və Aysel Xanalıyevanın birgə müəllifliyi ilə ümumtəhsil məktəblərinin 1-ci sinifləri üçün sınaq məqsədilə hazırlanmış Azərbaycan dili dərslik komplektinə münasibətimizi bildirmək istəyirik.




Bu dərslik 2 hissədən (2 kitabdan) ibarətdir. Birinci hissə 96 səhifə olmaqla 4 fəsil (ümumiləşdirici dərslər də daxil olmaqla 21 mövzu), 2-ci hissə isə 80 səhifə olmaqla 4 fəsildən (ümumiləşdirici dərslər də daxil olmaqla 20 mövzu) ibarətdir. Hər fəslin sonunda bir mövzu ümumiləşdirici dərs

kimi nəzərdə tutulmuşdur. Dərslikdə diqqəti cəlb edən mühüm məqamlardan biri şagirdlər üçün nəzərdə tutulmuş mövzulardır. Bu mövzular həm struktur, həm də məzmun baxımından maraq doğurur. Dərsliyin birinci hissəsi "Ailə və məktəb" fəsli ilə başlayır, "Təhlükədən qoruyaq", "Sağlam həyat tərzi" fəsilləri ilə davam edir və "Təbiətin sirləri" fəsli ilə başa çatır. Təlim materiallarının verilməsi ardıcıllığı, məzmunun yeni texnologiyalar əsasında formalaşdırılması, hər bir fəsil və hər bir mövzuya dair mətnin əyaniliklə təmin olunması, şagirdlərin praktik bilik, bacarıq və vərdişlərinin inkişafına diqqət yetirilməsi və ümumiyyətlə, tədrisin səmərəli təşkili üçün innovativ yanaşmaların nəzərə alınması bu dərsliyin geniş tətbiqi üçün real imkanlar yaradır. Ümumiyyətlə, birinci siniflər üçün Azərbaycan dili dərsliyi ilə bağlı ümumi qənaət budur:

- bu dərslik təhsil proqramına (kurikuluma) və müvafiq standartlara uyğundur;
- dərslikdə məzmun müvafiq standartlara uyğun işlənmiş, müvafiq məsələlər əhatə olunmuş və ardıcıllıq nəzərə alınmışdır;
- dərslikdə təlim strukturu və strategiyası müasir yanaşmalar əsasında müəyyənləşdirilmişdir;
- dərslikdə tapşırıqlar elmi-metodik tələblərə uyğundur;
- dərslikdə dil və yazı üslubu qənaətləndiricidir;
- dizayn, rəsm, illüstrasiyalar və bədii tərtibat məsələləri qənaətbəxş həllini tapmışdır;

- dərslikdə milli-mənəvi dəyərlərin aşılanması imkanları genişdir;

- şagirdlər texnologiyadan, öyrənmə üçün digər alət və vasitələrdən istifadəyə təşviq edilir.

Birinci siniflər üçün Azərbaycan dili dərsliyinin ikinci hissəsi də məzmun xətlərinə uyğun standartaların reallaşdırılması üçün yaradılmış imkanlar baxımından diqqəti cəlb edir. İlk fəsil “Nağıllar aləmində”, ikinci fəsil “Vətənim Azərbaycan”, üçüncü fəsil “Yaxşı nədir, pis nədir” və sonuncu fəsil isə “Dünyanı kəşf edirəm” adı ilə təqdim olunur. Dərslikdəki mövzuların bu şəkildə müəyyənləşdirilməsi şagirdləri nağıllardan, xəyal aləmindən, macəralardan real həyata doğru istiqamətləndirir, Vətəni, Azərbaycanı doğma yurd kimi dərindən dərk etməyə, onu tanımağa, sevərək yaşamağa, qorumağa, uğrunda canını fəda verməyə hazır olmağa səsləyir. Mövzuların ardıcıllığı və onların məzmunu şagirdləri tədricən insan üçün vacib olan zəruri mənəvi keyfiyyətlər, o cümlədən yaxşılıq, dostluq, mərhəmətlilik, xeyirxahlıq haqqında məlumatlar əldə etməyə yönəlir. Bu yolla şagirdlərin həm də həyati bacarıqlara yiyələnmək imkanları genişlənir. Dərsliyin birinci hissəsinin sonuncu fəslində isə şagirdlər dünya haqqında daha ətrafı məlumat almaq üçün həyatın sirləri, müəyyən qədər tarixi keçmiş, insanların həyat tərzi, yaşamaq uğrunda mübarizəsi, eyni zamanda kosmos, göy cisimləri barədə zəruri bilik və bacarıqlara yiyələnmək imkanları daha da artır. Məsələnin belə qoyuluşu şagirdlərin yaş və inkişaf xüsusiyyətlərinin nəzərə alınması prinsipindən

irəli gəlir. Bu prinsipin nəzərə alınması şagirdlərin həm də bir insan, vətəndaş, şəxsiyyət kimi özünü, tədricən dünyanı dərk etməsi üçün əhəmiyyətlidir. Dərslikdəki mətnlər verilmiş mövzulara uyğun olaraq bəhs olunan məsələlər barədə şagirdlərdə geniş təsəvvür yaratmaq imkanlarına malikdir. Mətnlər sadə, aydın, oxunaqlı dildə təqdim olunmuş, şagirdlərin idrak fəallığının, müstəqil dərketmə, nəticəçıxarma qabiliyyətlərinin dərinləşdirilməsinə, həmçinin vətənpərvərlik hisslərinin formalaşmasına istiqamətlənmişdir. Mətnlərlə bərabər sual və tapşırıqlar, izahedici əyani materiallar-rəngli şəkillər dərsliyin elmi-metodik baxımdan müvafiq tələblərə uyğun hazırlandığını söyləməyə əsas verir. Şagirdlərin idrak bacarıqlarını formalaşdırmaq üçün “Şəkillər üzrə hekayə qurub danışın” (səh. 52), yaxud verilmiş ...” mətnin davamını təxmin edin” (səh. 53) kimi tapşırıqların dərslikdə verilməsi əhəmiyyətlidir. Bu dərslik inteqrativ məzmun daşıyır. Burada şagirdlərin təbiətə və cəmiyyətə aid ümumi biliklərinin formalşdırılması üçün imkanlar genişdir. Dərsliyin məzmunu dil, ədəbiyyat, tarix, xüsusilə Azərbaycan tarixi, riyaziyyat, biologiya, coğrafiya, təsviri incəsənət və digər fənlərə aid təlim materialarının komponentləri üzərində qurulub. Məsələn, Azərbaycan dili fənninin məzmun xətlərinə (dinləyib-anlama və danışma, oxu, yazı, dil qaydaları) uyğun olmaqla “Vətənim Azərbaycan” fəsli bilavasitə Azərbaycan tarixi və coğrafiyasına aid materiallar əsasında hazırlanmış və şagirdlərin vətənpərvərlik tərbiyəsi üçün mühüm əhəmiyyət kəsb

edir. Bu baxımdan həmin fəsildəki “Vətən nədir?”, “Vətənimizi tanıyaq”, “Vətənimizi sevək”, “Çağırır Vətən” mövzularının tədrisi prosesində fənnin məzmun xətlərini əsas götürərək müvafiq standartlar əsasında şagirdlərə milli-mənəvi dəyərlərimizin öyrədilməsi, Azərbaycan tarixi və coğrafiyasına, Vətən torpağına məhəbbət hissi aşılamaq imkanları daha da genişlənir.

Ümumiyyətlə, araşdırmalar göstərdi ki, yeni yanaşmaları ehtiva etdiyinə görə bu dərsliyin ibtidai siniflərdə istifadə olunması məqsədəuyğundur.

Dərslik komplekti içərisində müəllimlər üçün metodik vəsaitin də xüsusi əhəmiyyəti vardır. Belə ki, metodik vəsait tədris ili ərzində fənn müəlliminin səmərəli fəaliyyəti üçün geniş imkanlar yaradır. Bu baxımdan həmin fənn üzrə dərslik müəlliflərinin (Ü. Nurullayeva, İ. Bayramova, Ş. Zahidova, N. Allahverdiyeva, A. Xanalıyeva) hazırladıqları ümumtəhsil məktəblərinin birinci sinfi üçün Azərbaycan dili fənni üzrə metodik vəsait haqqında da mülahizələrimizi diqqətə çatdırmaq istəyirik. Metodik vəsait iki hissədən ibarətdir. Bu hissələr dərslik kimi ayrı-ayrı, 2 kitabda deyil, bir kitabda verilmişdir. Burada həm dərsliyin ümumi məzmun-struktur və metodoloji konsepsiyası verilmiş (birinci-ümumi giriş hissədə), həm də dərsliyin 1-ci və 2-ci hissələrinin (hər iki kitabın) tədris prosesində tətbiqi metodikası, dərslərin şərhi əsaslandırılmışdır. Metodik vəsaitdə (“Dərsliyin komponentləri” bölməsində), eyni zamanda valideynlər üçün tövsiyələrin (“Valideyn bələdçisi” adı ilə) hazırlanması istiqamətləri

əksini tapmışdır. Qeyd edək ki, Azərbaycanda ilk dəfədir ki, dərslik komplektinin tərkibinə valideynlər üçün tövsiyələrin hazırlanması məsələsi rəsmiləşdirilərək həyata keçirilməyə başlanmışdır. Bu tövsiyələr valideynlərin pedaqoji-psixoloji maariflənməsində və nəticədə şagirdlərin məktəbə hazırlığı, məktəb mühitinə adaptasiyasında, müəllim-valideyn əlaqələrinin möhkəmlənməsində  mühüm əhəmiyyət kəsb edir.

Metodik vəsaitdə dərsliyin hazırlanması mexanizmi şərh olunur və hər bir fəsil, mövzu üzrə təlimin təşkili xüsusiyyətləri göstərilir, proqram ardıcıllığı ilə hər bir dərsin strukturu və məzmununa aydınlıq gətirilir.

Müasir elmi yanaşmaların tələbi budur ki, fənn üzrə məzmun standartlarını reallaşdırarkən həm də şagirdlərdə müvafiq kompetensiyaların (səriştələr, dəyərlər, münasibətlər) formalaşdırılmasına ciddi diqqət yetirilsin. Müəllimlər üçün metodik vəsaitdə bu məsələlərə aydınlıq gətirilir, dərsliyin məhz həmin tələblərə uyğun hazırlanmasının əhəmiyyəti göstərilir. Bu məsələ ilə bağlı müəllimlər üçün verilmiş nümunələr işin praktik təşkilinə istiqamət verir. Məsələn, 1-ci sinfin Azərbaycan dili dərsliyində (1-ci hissədə) 2-ci bölmə belə adlanır: “Təhlükədən qorunaq”. Bu bölməyə aid verilən mövzulara diqqət edək: “Diqqət! Təhlükə!”; “Yanğın”; “Yolda təhlükə”; “Evdə təhlükə”; “Xilasedicilər”; “Ümumiləşdirici dərs”. Bu mövzular bütövlükdə bölmənin mahiyyətindən doğan ümumi, aparıcı ideyaları əks etdirir. Bu o deməkdir ki, tədris vahidi konsepti, yəni bölmə üzrə mövzularda verilən bilik, bacarıq, kompetensiyaların vəhdəti, ümumi ideya xətti

nəzərə alınmışdır. Həmin bölmə, yaxud mövzular üzrə nitq bacarıqları, akademik biliklər və kompetensiyalarla bağlı bəzi nümunələri təqdim edirik:

Nitq bacarıqları:

- şəkil üzrə danışma, nitq etiketləri (Şifahi nitqə aid);

-təhlükə, zəlzələ, xilasedici, məişət, təmir, işarə, qadağa, göstəriş, məlumat, respirator, yanğınsöndürən və s. (Söz ehtiyatı);

- qısa cümlələrin oxunması, kitabın başlıq, illüstrasiyasından təxmin edərək məzmunun müəyyənləşdirilməsi (Oxu);

-D, Y, O, Ö, S, Ş, U, Ü, K, P, V, E, G, Ğ hərflərinin hüsnxət normalarına uyğun yazılışı (Yazı).

Akademik biliklər:

-cümlənin əlamətləri, cümlənin məqsəd və intonasiyaya görə növləri (Dil qaydaları);

- müəllif, başlıq, mövzu, cild, nöqtə və s. (Filoloji anlayışlar).

Kompetensiyalar:

- oxu mədəniyyəti, kitaba maraq və sevgi, təhlükəni qabaqlamaq, özünü və başqalarını qorumaq.

Araşdırmalar göstərir ki, ənənəvi dərsliklərdən, ənənəvi metodikadan fərqli olaraq yeni dərsliklərdə yeni yanaşma və texnologiyalardan istifadənin belə bir məzmunda təqdim olunması nəticə etibarilə şagirdlərin təlim marağının artırılmasına, keyfiyyətin yüksəlməsinə, müəllimlərin yaradıcı, dəyəryönlü fəaliyyətinin inkişafına və innovasiyaları tətbiqetmə imkanlarının genişlənməsinə əlverişli zəmin yaradır.

Bu günün ən vacib tələblərindən biri budur ki, şagirdlər məhz dəyəryönlü keyfiyyətləri daşıyan, ilk növbədə özünü tanıyan, xalqını, millətini, tarixini dərk edən vətəndaşlıq xüsusiyyətləri, dövlətə, vətənə bağlılığı ilə qürur hissini yaşaya bilən insan-şəxsiyyət kimi formalaşsınlar. Metodik vəsaitin məzmununda hər bir bölmə, yarım il üzrə təlim məqsədləri nədir?, nəyi öyrənirik?, nə məqsədlə öyrənirk?, nəyi qiymətləndiririk?, nə məqsədlə qiymətləndiririk? və digər bu kimi pedaqoji-metodik cavab tələb edən suallara aydınlıq gətirilmişdir.

Ümumiyyətlə, bu metodik vəsait ümumtəhsil məktəblərinin Azərbaycan dili fənni üzrə 1-ci sinif müəllimləri üçün dəyərlidir və tətbiqi məqsədəuyğundur.

Təlim digər dillərdə olan ümumtəhsil məktəblərində Azərbaycan dili dövlət dili kimi tədris olunur. Ehtiyat dərslik problemi ilə bağlı məsələləri öyrənmək məqsədilə həmin məktəblərin 1-ci sinifləri üçün hazırlanmış Azərbaycan dili (dövlət dili) dərsliyi haqqında da fikirlərimizi bildirmək istəyirik. Bu dərslik komplektinin müəllifləri Ülkər Nurullayeva və Aynur Rüstəmovadır.

Tədqiqatlardan aydın olur ki, təlim digər dillərdə olan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (dövlət dili) fənn kurikulumu "dinləyib-anlama" və "danışma" məzmun xətləri üzrə (2 məzmun xətti) fəaliyyəti əks etdirdiyindən dərslik materialları da buna uyğun hazırlanmışdır. Bu fənnin tədrisinə həftədə 3 dəfə olmaqla 6 saat, illik: cəmi 66 saat planlaşdırılmışdır. Mövzular 11 bölmədə qruplaşdırılmış və

hər bölmənin tədrisinə 6 saat vaxt verilmişdir. Həmin bölmələr bunlardır: 1. Ailə.Tanışlıq; 2. Say. Zaman; 3. Emosiyalar. Bədən üzvləri; 4. Məktəb; 5. Rənglər. Geyim; 6. Meyvə. Tərəvəz; 7. Ərzaq; 8. Heyvanlar; 9. Quşlar; 10. Peşələr. Təhlükəsizlik; 11. İdman. Gigiyena.

Qeyd edək ki, dərslikdə əksini tapmış mövzular bilavasitə şagirdlərin həyati bilik və bacarıqlarının formalaşması və inkişafına yönəldilmiş, bu da onların dövlət dili kimi Azərbaycan dilini mənimsəmələrinə, bu dilin tətbiqi ilə şifahi və yazılı nitq vərdişlərinin möhkəmlənməsinə geniş imkanlar yaradır.

Dərslik əsasən şəkillər, təsvirlər üzrə tərtib olunmuşdur. Lakin bu şəkillərin məna və mahiyyətinin öyrənilməsi üçün onlar üzərində iş aparılması tələb edilir. Dərsliyin məzmunundan aydın olur ki, burada şagirdlərin söz ehtiyatının formalaşması və inkişafına xüsusi diqqət yetirilmişdir. Bu da təbiidir. Çünki dilin öyrənilməsində ilk növbədə zəngin söz ehtiyatının olması vacibdir. Məsələnin belə qoyuluşu, eyni zamanda dinləyib-anlama məzmun xəttinin reallaşması üçün imkanların yaranması baxımından əhəmiyyətlidir. Bu işin məqsədyönlü təşkilində müəllimlər üçün hazırlanmış metodik vəsaitin böyük rolu vardır.

Ümumtəhsil məktəblərinin 1-ci sinifləri üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə metodik vəsaitin müəllifləri (Ülkər Nurullayeva, Aynur Rüstəmova) həm də həmin fənn üzrə dərslik müəllifləridir. Metodik vəsait 1-ci siniflərdə dövlət dili kimi Azərbaycan dilinin öyrənilməsi xüsusiyyətlərini, təlim texnologiyasının tətbiqi yollarını, dərslik və iş dəftəri

ilə işləmək metodikasını əks etdirir. Dərslik komplektində əksini tapmış bəzi mövzu üzrə tədrisin təşkili metodikasına aid nümunəni nəzərdən keçirək. Dərsliyin birinci bölməsində (Ailə.Tanışlıq) 3-cü dərs dinləyib- anlama və danışma məzmun xətləri üzrə Azərbaycanla ümumi tanışlığa həsr olunub. 4-cü dərs isə xalqların təsviri üzərində qurulub. Burada da dinləyib-anlama və danışma məzmun xətləri əsas götürülüb. Dərslikdə 3-cü dərsə aid olan səhifədə-mətnin yuxarı hissəsində şagirdlərin diqqətini cəlb etmək və onların söz ehtiyatını zənginləşdirmək üçün Azərbaycan, Vətən, xəritə, bayraq və gerb sözlərinin xüsusi çərçivədə və işarələrlə verilməsi, onun davamı kimi Azərbaycan Respublikası xəritəsinin, bayrağının, gerbinin təsvir edilməsi əhəmiyyətlidir. Müəllimlər üçün metodik vəsaitdə bu mövzunun tədrisi yolları interaktiv metodikanın tələblərinə uyğun ardıcıllıqla əksini tapmışdır. İlk növbədə müəllimə kömək məqsədilə təlim nəticələri aşağıdakı şəkildə verilmişdir:

Söz ehtiyatı: Azərbaycan, vətən, bayraq, gerb, xəritə

Dinləmə: 1.1.2. Adını eşitdiyi  əşya və hadisəni şəkildə göstərir.

Danışma: 2.2.1. Müşahidə etdiyi əşya və hadisələri adlandırır.

Qrammatika: İsmin mənsubiyyət kateqoriyası. İsmin xəbərlik kateqoriyası (bax.s.12.). Dərsin gedişinin aşağıdakı ardıcıllıqla təşkili müəyyənləşdirilmişdir:

1. 1-ci tapşırıq. 1. Dinləyin və izləyin. 2. Dinləyin və təkrar edin. 3. Dinləyin və göstərin. 4. Siniflə iş. 5. Təqdimat. 6. İş dəftəri: 1-ci tapşırıq. 2-ci tapşırıq.

Burada 3-cü dərsə aid dərslikdəki şəkillər və “Müəllimlərin nəzərinə! başlıqlı tövsiyələr də əksini tapmışdır. ”Müəllimlərin nəzərinə!” tövsiyəsində göstərilir ki, bu dərsdə fənn müəlliminin Azərbaycan xəritəsi, bayrağı və gerbini əyani şəkildə nümayiş etdirməsi, eyni zamanda Azərbaycanın dövlət himnini səsləndirərək dövlət rəmzləri barədə tam məlumat verməsi tövsiyə olunur (bax.s.12). Göründüyü kimi, təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərinin 1-ci sinif şagirdləri üçün Azərbaycan dili (dövlət dili kimi) fənninin həm də tariximizi, Vətənimizi, müstəqil dövlət kimi respublikamızı tanıtmaq imkanları da genişdir. Belə mövzuların tədrisi prosesində şagirdlər sadə şifahi nitq nümunələrinin məzmununu başa düşdüyünü nümayiş etdirir, öyrəndiyi sözlərin mənasını izah etməklə onların əsasında cümlələr qurmağı bacarır. Yəni şagirdlərin Azərbaycan dili ilə bağlı bilik və bacarıqlarının formalaşdırılması Azərbaycan tarixi, mədəniyyətinə aid təlim materialları üzərində qurulması təqdirəlayiqdir. Lakin bəhs etdiyimiz mövzulara aid dərslik mətninə və metodik vəsaitə bəzi əlavələrin edilməsi fikrimizcə, daha yaxşı olardı. Belə ki, şagirdlərin söz ehtiyatını (söz boğçası) zənginləşdirmək üçün mətnə aid yeni sözlər seçilmiş, dərslikdə 3-cü dərs mətninin yuxarı hissəsində verilmişdir. Yəni burada təlim nəticələrindən biri kimi şagirdlərin öyrənəcəkləri yeni sözlərin –anlayışların adı əksini tapmışdır (bax.

dərslik s. 8). Bu sıraya bayraq, gerb sözləri ilə bərabər, himn sözünün də əlavə edilməsi yaxşı olardı. Çünki, söhbət həm də dövlət atributlarından gedir. Eyni zamanda bu məsələ əslində dərsliyə aid müəllim üçün metodik vəsaitdə də tövsiyə olunur.

Ümumtəhsil məktəblərinin 1-ci sinifləri üçün "Azərbacan dili (dövlət dili kimi)" fənni üzrə metodik vəsaitdə dərslikdəki 4-cü mövzunun tədrisi metodikası da maraq doğuran məsələləri əhatə edir. Mövzuya uyğun təlim nəticələri belədir:

Dinləmə: 1.1.1. Sadə şifahi göstərişləri təkrarlayır və onlara əməl edir.

Danışma: 2.2.3. Mövzuya uyğun sadə dialoqlar qurur.

Qrammatika: İsmin mənsubiyyət kateqoriyası. İsmin xəbərlik kateqoriyası (bax. s.13). Dərsin məzmunu müxtəlif xalqların nümayəndələrinin təsviri verilmiş rəngli şəkillər üzərində qurulub. Şəkillərdə əllərində öz ölkələrinin bayraqlarını tutmuş uşaqlar təsvir olunur. Hər şeydən əvvəl qeyd edək ki, təlim prosesində belə şəkillər üzərində şagirdlərlə sual-cavab, müzakirə aparmaq, cütlərlə iş forması üzrə dialoq qurmaq, oyun metodundan istifadə etmək, şagirdlərin təqdimatını dinləmək, eyni zamanda müvafiq tapşırıqların iş dəftərində yerinə yetirilməsinə nail olmaq tədrisin səmərəli təşkili baxımından çox əhəmiyyətlidir. Bu baxımdan 4-cü dərsi müasir yanaşmalar əsasında tədris etmək üçün geniş imkanlar vardır. Bu dərsdə də dinləmə və danışma məzmun xətlərinə uyğun şagirdlər təlim nəticələrinə nail olur, zəruri bilik, bacarıq və səriştələri mənimsəyir və nümayiş etdirirlər.

Lakin mətndə verilmiş dialoqun məzmununun müəyyən qədər yeniləşdirilməsi yaxşı olardı. Belə ki, metodik vəsaitin mətnində sual-cavab hissəsində göstərilir ki, müəllim şagirdlərə təsvir etdiyi şəklə aid suallar verir:

- Bu, Rusiyanın bayrağıdır?
- Xeyr. Bu, Türkiyənin bayrağıdır.
- Bu kimdir?
- Bu, oğlandır.
- Onun adı nədir?
- Onun adı Rəsuldur.
- O, özbəkdir?
- Xeyr. O, türkdür.

Mətndə qeyd olunduğu kimi, şagirdlər aldıqları məlumat əsasında bu dialoqu qura bilir, sualları cavablandıraraq bacarıqlarını nümayiş etdirirlər. Bizim fikrimizcə, burada "O, özbəkdir?" sualını dəyişmək, əvəzinə mənşəcə türk olmayan xalqlardan birinin adını yazmaq daha məqsədəuyğun olardı. Çünki fikrimizcə, "Xeyr. O, türkdür" cavabını verəndə şagirdlər özbəyin türklə heç bir əlaqəsinin olmadığı qənaətinə gəlirlər.

Ümumtəhsil məktəblərinin birinci siniflərində sınaq məqsədilə tətbiq olunan ehtiyat dərsliklərdən biri də riyaziyyat dərsliyidir.

M. Məhərrəmov, G. Hüseynzadə, S. Abdullayeva və İ. Rüstəmovanın birgə müəllifliyi ilə hazırlanan bu dərslik də 2 hissədən ibarətdir. Birinci hissə 92, 2-ci hissə isə 76 səhifədən ibarətdir. Birinci hissədə 28, 2-ci hissədə 49 mövzu

verilmişdir. Dərsliklərin məzmunu əyanilik üzərində formalaşdırılmış, inteqraiv xarakterlidir və şagirdlərin idrak fəallığının, müstəqil iş qabiliyyətlərinin inkişafına istiqamətləndirilmişdir. Məsələn, bir nümunəyə diqqət edək. Dərsliyin birinci bölməsinin (Əşyanın əlaməti) giriş hissəsində bölmə ilə tanışlıq məqsədilə rəngli şəkil verilmişdir. Burada həyətdə toplaşmış uşaqların fəaliyyəti təsvir olunmuşdur. Uşaqlardan biri gitara çalır, başqaları isə nənə və baba ilə birgə dinləyirlər, digər bir uşaq həyətdəki hovuzda üzən qaz və ördəkləri yemləyir. Bir qədər kənarda  başqa bir əyləncə ilə məşğul olan uşaqlar da təsvir olunub. Ümumiyyətlə, şəklin məzmunu informasiya baxımından xeyli zəngindir. Şəklin sonunda "Hazırıqmı?" başlıqlı aşağıdakı sual və tapşırıqlar qoyulmuşdur:

-Şəkildəki əşyaların rəngi və forması haqqında nə demək olar?

-Bayraq və lampalar rənglərinə görə necə düzülüb?

-Şəkildə təsvir olunan varlıqların yeri haqqında danışın (səh.7).

Göründüyü kimi, istər şəklin məzmunu, istərsə də qoyulan sual və tapşırıqlar şagirdlərin riyaziyyatla bərabər, həyat bilgisi, təsviri incəsənət, biologiya fənləri üzrə inteqrativ bilik və bacarıqlarının formalaşmasına zəmin yaradır. Dərsliyin birinci hissəsində "Əşyanın əlamətləri", "Ədədlər (10-a qədər)", "Ədədlərin müqayisəsi", " Toplama (10-a qədər), "Çıxma (10-a qədər)" və " Ədədlər (20-yə qədər)", ikinci hissəsində isə "Həndəsi fiqurlar", "Toplama (20-yə qədər), Çıxma

(20-yə qədər), "Ədədlər (100-ə qədər), "Ölçmə" və "Məlumatların təsviri" bölmələri əksini tapmışdır. Hər bölmənin sonunda ümumiləşdirici tapşırıqların verilməsi, eyni zamanda tədris ilinin sonunda 1-ci sinif üzrə ümumiləşdirici tapşırıqların, sözlük və məsələ həllinə nümunələrin nəzərdə tutulması dərsliyin elmi-pedaqoji əhəmiyyətinin göstəricilərindən biri kimi qeyd oluna bilər. Ümumtəhsil məktəblərinin birinci siniflərində sınaq məqsədilə tətbiq olunan riyaziyyat fənni üzrə ehtiyat dərsliyin metodik vəsaiti (müəlliflər: Hüseynzadə G., Abdullayeva S., Rüstəmova İ.) də ümumpedaqoji məsələlərin əksi baxımından diqqəti cəlb edir. Bu metodik vəsaitdə də Azərbaycan dili fənni üzrə metodik vəsaitdə olduğu kimi həm dərsliyin konsepsiyası, həm də dərslərin şərhi verilmişdir. Dərsliyin konsepsiyasında riyaziyyat fənni tədrisinin, eyni zamanda dərsliyin konseptual məsələləri təqdim edilmişdir. Metodik vəsaitin konsepsiya hissəsində müasir riyazi təhsilin əsas hədəflərindən bəhs edilərək göstərilir ki, bu gün şagirdlərin aşağıdakı bacarıqlara yiyələnməsi və onun mütəmadi olaraq təkmilləşdirilməsi vacibdir: 1) problem həlli; 2) riyazi təfəkkür; 3) riyazi əlaqələndirmə; 4) riyazi dəyərləndirmə (bax: səh.3). Burada həm də ibtidai sinif dərsliklərindən istifadə olunarkən tövsiyə edilən təlim metodlarının adı çəkilir və onların şərhi verilir. Həmin metodların adı öyrəndiyimiz ənənəvi metodların adından fərqli təqdim olunur, onun mahiyyəti nəzəri baxımdan izah edilir: 1) fəaliyyətə əsaslanan təlim; 2) problem mərkəzli öyrənmə; 3) birbaşa təlim; 4) müəllim mərkəzli tədqiqat;

5) şifahi (zehindən) hesablama və hesablama səlisliyi (bax: səh.3-4).

Fəaliyyətə əsaslanan təlim metodu “yerinə yetirməklə, təcrübədən keçirməklə öyrənmə” mənasını verir. Bu metoda əsasən şagirdlər qrup halında, yaxud fərdi çalışmalarla riyazi anlayışları təhlil edir, mənbələr əsasında araşdırma apararaq mahiyyəti öyrənirlər. Yəni burada öyrənmə istiqamətli praktik fəaliyyət nəzərdə tutulur. Digər metodlardan biri problem mərkəzli öyrənmədir. Bu, riyazi fikir, ideya və anlayışların əlaqələndirildiyi real həyati situasiyalar üzərində qurulmuş metoddur. Problemlər kontekstində tətbiq olunan bu metod şagirdlərin riyazi anlayışlara dair düşüncələrinin müzakirəsi üçün geniş imkanlar yaradır.

Birbaşa təlim metodunun mahiyyətində isə dərsdə biliklərin şagirdlərə birbaşa ötürülməsi məsələsi dayanır. Bu, müəyyən mənada ənənəvi təlimin xarakteristikasına uyğun səslənsə də əslində müəllim bütün dərs boyu şagirdlərin fəallaşdırılması üçün onlara suallar verir, mövzuları əlaqələndirir, vacib anlayışları izah edir və sair.

Metodik vəsaitdə müəllimyönlü tədqiqat metodundan bəhs edilərkən ilk növbədə o, sorğu-suallar vasitəsilə istiqamətləndirilmiş, öyrənmə mənasını verən bir metod kimi təqdim edilir. Qeyd olunur ki, bu metodla müəllim şagirdlərin cavablarını birbaşa deyil, sərbəst tədqiqat, təhlil və müzakirə nəticəsində cavablandırmağa çalışmalıdır. Riyaziyyatın tədrisində istifadə olunan metodlardan biri kimi şifahi (zehindən) hesablama və hesablama səlisliyi metodunun da adı çəkilir.

Bu baxımdan dərslikdə şagirdlərə şifahi hesablama bacarıqlarının aşılanması və onlarda bu bacarıqların inkişaf etdirilməsi imkanları genişdir. Metodik vəsaitdə bu istiqamətdə müəllimlərə müvafiq tövsiyələr verilmişdir (bax. səh.5).

Riyaziyyat dərsliyinin metodik vəsaitində mövzular üzrə verilmiş təlim modeli (öyrən, möhkəmləndir, tətbiq et modeli) dərslik konsepsiyasının tələblərinə uyğundur. Bu modelə əsasən şagirdlərin bilik və bacarıqları illüstrativ materiallarla zənginləşdirilərək əyani vasitələrlə mənimsədilir (öyrən anlayışı). Qazanılmış yeni bilik və bacarıqlar məşğələ, çalışma, yazı və başqa yollarla möhkəmləndirilir (möhkəmləndir anlayışı). Öyrənilən bilik və bacarıqlar getdikcə mürəkkəbləşən məsələ həllinə və modelləşdirməyə tətbiq olunur (tətbiq et anlayışı).

Məlumdur ki, riyaziyyat fənn kurikulumunda məzmun standartlarının (ədədlər və əməllər; cəbr və funksiyalar; həndəsə; ölçmə; statistika və ehtimal) 5 fəaliyyət xətti üzrə reallaşdırılması nəzərdə tutulur: ünsiyyətqurma; təqdimetmə; əlaqələndirmə; mühakiməetmə və isbatetmə; problemin həlli. Metodik vəsait bu məsələlərin hər birinin həlli istiqamətləri ilə bağlı konkret nümunələr təqdim edir, fənn müəllimlərinin praktik iş təcrübəsinin zənginləşməsinə və təkmilləşməsinə şərait yaradır.

Qeyd edək ki, 1-ci siniflərdə riyaziyyat fənni həftədə 4 saat olmaqla dərs ili müddətində 33 həftə (illik 134 saat) tədris olunur. Metodik vəsaitdə il ərzində tədris olunan

mövzuların öyrənilmə texnologiyası, qiymətləndirmə mexanizmləri əksini tapmışdır. Dərslikdə təlim materialları və metodik vəsaitdə qiymətləndirmə meyarları təlim məqsədlərinə uyğun verilmişdir. Təlim məqsədlərinə uyğun olan qiymətləndirmə meyarları təlim nəticələri ilə müqayisədə daha konkretdir və ölçülə biləndir.

Təlim prosesində ən mühüm məsələlərdən biri olan şagird nailiyyətlərinin qiymətləndirilməsi aparılarkən aşağıdakı üsul və vasitələrdən istifadə etmək məqsədəuyğundur:

Qiymətləndirmə üsulları: müşahidə, şifahi sual-cavab, tapşırıqvermə, məsələ həlli, oyun, valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq, yazı, riyazi imla, layihə, şifahi və yazılı təqdimat, test, özünüqiymətləndirmə.

Qiymətləndirmə vasitələri: müşahidə vərəqləri, şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi, çalışmalar, real həyati situasiyalar- mətnli məsələlər, öyrədici – didaktik oyunlar, söhbət, sorğu vərəqi, yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi, riyazi işarələri düzgün yazma vərdişlərinin formalaşdırılması üçün vərəqlər, meyar cədvəli, test tapşırıqları, özünüqiymətləndirmə vərəqləri və s.

## 4. EHTİYAT DƏRSLİKLƏRİN PEDAQOJİ VƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Biz tez-tez dəyişən, mürəkkəb hadisələr baş verən dünyada yaşayırıq. Belə bir dövrdə müəllim ətrafda baş verənləri, həyatın, məktəbin, uşaqların dəyişməsini nəzərə almalıdır. Qısa bir zamanda şagirdləri elə biliklərə istiqamətləndirməlidir ki, onlar cəmiyyətdə öz yerini tapa bilsin, müstəqillik, təşəbbüskarlıq, fəallıq nümayiş etdirə bilsinlər.

Bu gün təlim metodları müxtəlifdir: işgüzar oyunlar, modul və layihə metodları və s. Müəllim bilik mənbəyindən daha çox dərketmə prosesinin təşkilatçısı qismində iştirak edir. Pedaqoji fəaliyyətdə onun əsas aləti dərslikdir. Dərslikdə şagirdlərin mənimsəməsi üçün biliklər, fəaliyyət üsulları göstərilir ki, bu prosesdə də onlar bilik əldə etməkdə müstəqillik nümayiş etdirir, bacarıqlarını yaradıcı tətbiq etmək üçün yollar müəyyənləşdirirlər.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsində təhsilin məzmununa və təşkilinə verilən ümumi tələblər aşağıdakılardır:

- təhsilalanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq*, məntiqi, tənqidi və yaradıcı düşünmək* bacarığını formalaşdırmaq;

- öz üzərinə məsuliyyət götürmək, kollegial qərarların qəbulunda, demokratik təsisatların fəaliyyətində və inkişafında iştirak etmək keyfiyyətlərinə malik müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq;

- təhsilalanların fasiləsiz təhsil almasını, daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə yiyələnməsini, cəmiyyətin tələbatını daha səmərəli ödəməsini, şəxsiyyət kimi inkişaf etməsini və ömür boyu təhsilin hamı üçün açıq və bərabər imkanlı olmasını təmin etmək;

- yüksək intellektual səviyyəyə və praktik iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmaq .

Bu baxımdan ehtiyat dərsliklərin təlim prosesinə daxil edilməsi böyük əhəmiyyət kəsb edir. İbtidai siniflər üçün tərtib olunmuş bu dərsliklər dilin və riyaziyyatın tədrisində beynəlxalq təcrübəyə və müasir təlim texnologiyalarına əsaslanır.

Ehtiyat dərsliklər müasir şagirdin informasiya daşıyıcısı deyil, informasiya axınında ona kömək edərək yol göstərən bələdçi qismində çıxış edir. Bu baxımdan onun yalnız məzmununda deyil, strukturunda da dəyişiklik edilməsi və aşağıdakı amillərin nəzərə alınması əhəmiyyətli hesab olunur:

1. Fəaliyyətyönümlü yanaşma prinsipi.

2. Fəaliyyətyönümlü yanaşmanı tələb edən məzmunun problem xarakterli izahı.

3. Dərsliyin strukturunun təlim fəaliyyətinin təşkili formalarını təmin etməsi.

4. Təlim fəaliyyətinin təşkili formalarının müxtəlifliyində sistemin gözlənilməsi.

5. Ehtiyat dərsliyin müasir uşaqların tələb və maraqlarını əks etdirməsi.

6. Ehtiyat dərslikdə hər bir şagirdin dərketmə səviyyəsinin nəzərə alınması.

7. Uşaqların hər birinin şəxsi nailiyyət dinamikasını izləyən qiymətləndirmə mexanizminin olması.

8. Nəzarət mexanizmi.

9. Dərsliyin öyrənməyə motiv yaratması.

10. Şagirdlərin fərdi inkişafının təmin edilməsi.

11.Şagirdlərin şəxsiyyətyönlü, sosial və idrak inkişafının nəzərə alınması.

Ehtiyat dərsliklərdə məktəb pedaqogikası ilə bağlı məsələlərin öz əksini tapması əsas şərtlərdəndir: şagirdlərin yaş xüsusiyyətləri, öyrətmənin prinsip və metodları, növ və formaları, müəllim qarşısında qoyulan vəzifələr.

İbtidai siniflər üçün yeni məzmunlu ehtiyat dərsliklərin mövcud dərsliklərdən fərqli cəhətləri şagirdlərin hər gün eşitdikləri, rastlaşdıqları hadisələrə baxışını və vəziyyətdən çıxış yollarını göstərməklə inkişafetdiriciliyi təmin etməkdir. Dərsliklərin aparıcı ideyası yeni yanaşmaların müəyyənləşdirilməsi, təhsilin humanistləşdirilməsi, şagird şəxsiyyətinin inkişafı və onun emosional-iradi və intellektual səviyyəsinin yüksəldilməsidir.

İbtidai siniflərdə müasir dərsin əsas vəzifəsi şifahi nitqin və yazı bacarıqlarının yüksək səviyyədə mənimsənilməsi, kommunikativ bacarıqların inkişafı, situativ bacarıqların genişləndirilməsi, refleksiv keyfiyyətlərin inkişafıdır. Bu gün təlim qarşısında duran əsas vəzifə isə şagirdləri yalnız inkişaf etdirmək deyil, həmçinin onların müstəqil özünüinkişafını və

özünütəhsili üçün şəraitin yaradılmasıdır. Ehtiyat dərslikləri məhz bu istiqamətdə müəllimlərə yardım edir.

Özünüinkişaf və özünütəhsil üçün yaradılan şərait əsas prinsip kimi hər bir müəllimin fəaliyyətində öz əksini tapmalı və buna müvafiq dərslik seçməyə imkan verməlidir. Bu baxımdan ehtiyat dərsliklərin yaradılması müəllimlərin seçimində geniş imkan yarada bilər. İbtidai siniflərdə ehtiyat dərslikləri müxtəlif hazırlıqlı uşaqların səviyyəsini nəzərə alaraq təlim materiallarının verilməsində müxtəlif yanaşmaları tətbiq etməyi nəzərdə tutur.

İbtidai siniflər üçün ehtiyat dərsliklərin konseptual əsaslarla yeni model kimi tətbiqi və metodik təminatı nəzərdə tutulur. Ehtiyat dərsliklər öz etibarlılığı və yeni pedaqoji yanaşmalara şərait yaratması ilə fərqlənir.

Məlumdur ki, məktəb təcrübəsi hər bir fənnin tədrisini ayrılıqda görməyə və ümumən yeni məktəb həyatını dərk etməyə imkan verir.

Azərbaycan dili üzrə ehtiyat dərslik müasir məktəbin tələblərinə cavab verərək ilkin oxu və intensiv nitq inkişafını təmin etməlidir.

Bu kursun məqsədi bir fənn kimi ana dilinə maraq oyatmaq, dilin qorunmasında, təmizliyində, ifadəliliyində, unikallığında hər bir vətəndaş kimi şagirdlərin də rolunun olmasını göstərmək və onun dərindən öyrənilməsinə sövq etməkdir. Kurs uşaqlarda bütöv sistem kimi Azərbaycan dili haqqında təsəvvür formalaşdırır .

Dərslikdə əks olunan illüstrasiya materialları dünya, təbiət, cəmiyyət haqqında şagirdlərin təsəvvürlərini genişləndirir və dəqiqləşdirir, söz ehtiyatını fəallaşdırır, yaradıcı təxəyyülünü inkişaf etdirir.

Ümumiyyətlə, ehtiyat dərsliklər kiçik məktəblinin idrak fəaliyyətinin inkişafına - ətrafda baş verən hadisələri dərk etməyə, özünüqiymətləndirməyə və özününəzarətə, öz fəaliyyətini planlaşdırmağa, müxtəlif informasiya materiallarından istifadəyə və s. istiqamətlənməlidir:

Nitq inkişafı təlimin mühüm tərkib hissəsidir. Kiçik yaşlı məktəblilər məzmunlu, orfoqrafik, qrammatik və orfoepik cəhətdən düzgün danışmağı öyrənirlər. Bu da onların gələcək həyata hazırlığının təmin olunmasında mühüm rol oynayır.

Ehtiyat dərsliklərdən istifadə didaktik materialların həm sinifdə, həm də evdə hazırlanması tələbini irəli sürür. Çünki ehtiyat dərsliklər valideynlərin də təlimdə iştirakını nəzərdə tutur. Burada dil materiallarının təhlilinə, nitq inkişafına, idrak fəallığı və yaradıcı qabiliyyətlərə dair tapşırıqlar yer alır.

Oxu üçün material iki aparıcı prinsip üzərində qurulur: bədii və kommunikativ-idraki. Dərsliyə daxil edilən bədii əsərlər uşaqların hər birinin dərketmə xüsusiyyətlərini nəzərə almaqla xalqımızın və digər xalqların mədəni irsi ilə, mənəvi dəyərləri ilə tanış edir, poetik sözün gözəlliyini hiss etmək qabiliyyətini inkişaf etdirir, mütaliə etməyə maraq formalaşdırır və müstəqil kitab oxumağa tələbat yaradır.

Dərsliklərin mənəvi təsir aspektinin gücləndirilməsində bədii əsərlərin seçimi böyük rol oynayır.

I sinifdə uşaq ədəbiyyatı, II sinifdə folklor nümunələri, nağıllar, III sinifdə uşaq ədəbiyyatı (nisbətən böyük uşaqlar üçün), IV sinifdə uşaq yazıçılarının və müasir yazıçıların əsərlərindən istifadə edilməsi məqsədəuygundur.

Dərslikdə şagirdlərin kommunikativ nitq bacarıqlarının inkişafı aspekti nitq fəaliyyətinin bütün növlərinin inkişafına (oxu, dinləmə, danışma, yazı) diqqət yetirməyə, nitq bacarıqlarının formalaşmasına imkan verməli (mətnin məzmununun danışılması, planın tərtib olunması) və hər şeydən əvvəl, mətnin şüurlu, ifadəli və düzgün oxunulmasına yönəlməlidir.

Riyaziyyat fənni üzrə ehtiyat dərsliyin əsas xüsusiyyəti şifahi və yazılı hesablamaların, həmçinin digər vərdişlərin şüurlu mənimsənilməsidir. Məlumdur ki, şagirdlərin bir qismi riyaziyyat dərslərinə maraq göstərmir. Ona görə də burada əsas məqsəd idrak maraqlarının təmin olunmasına istiqamətlənən öyrənməyə motiv yaratmaq, yaradıcılıq sevincini, təfəkkürün inkişafını, yaradıcı qabiliyyətləri formalaşdırmaqdır. Müasir tələblərə uyğun olaraq ehtiyat dərsliklərdə əsas diqqət hər bir uşağın idrak qabiliyyətlərinin inkişafına imkan yaradan şəraitin təmin edilməsidir. Məsələlərin mövzusu yenilənmiş, müxtəlif riyazi materiallar daxil edilmiş, əyləncəli, uşaqların məntiqi təfəkkürünü və təxəyyülünü inkişaf etdirən tapşırıqlar verilmişdir. Anlayışlar, mə-

sələlər arasında əlaqədə müqayisəyə, uyğunluğa və uyğunsuzluğa, dəlillər arasında oxşarlığın və fərqliliyin aşkar edilməsinə böyük əhəmiyyət verilir.

Təlim keyfiyyətinin yüksək olduğunu dəqiqləşdirmək üçün təlimin məzmun və strukturuna nəzarətin və qiymətləndirmə fəaliyyətinin inkişafı üçün yeni yanaşmaların daxil edilməsi məqsədəuyğundur ("Biliyini yoxla", "Dostunun cavabını qiymətləndir", "Cavabını mətnlə müqayisə et", "Səhvlərini tap" və s.).

İbtidai siniflər üçün məzmunun yenilənməsi reproduktiv və instruktiv fəaliyyətdən axtarıcılıq və tədqiqatçılıq fəaliyyətinə keçməklə izah olunur. Bu zaman şagird yalnız tamaşaçı, dinləyici, təkrar edən deyil, tədqiqatçı kimi özünü büruzə verir.

Bu cür mövqe onun maraqlarını müəyyən edir. Məsələn, dərslikdə "Öz fikrini bildir" bölməsinin imkanlarına uyğun şagird öz fərziyyəsini irəli sürə bilər, təlim vəzifələrini həll etmək üçün yollar axtarar, mövzu ətrafında keçirilən diskussiyada iştirak edə bilər. Bu zaman hər bir şagird öz fikrini bildirir və şüurlu olaraq düzgün elmi nəticəni qəbul edir.

İbtidai siniflər üçün təlimin məzmununun yenilənməsi şagirdlərin müstəqil və təşəbbüskarlıq fəaliyyətinə diqqətin artırılması ilə bağlıdır. Bununla əlaqədar olaraq dərsliklərə sinifdən - sinfə mürəkkəbləşən yaradıcı və problem xarakterli tapşırıqların salınması məsləhətdir. Yaradıcılığın inkişafı psixi proseslərin təkmilləşdirilməsi ilə sıx bağlıdır. Buna görə də dərsliklərə, xüsusən də I və II sinif dərsliklərinə rollu

oyunların daxil edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan da rollu oyunlar sistemi işlənməlidir. Rollu oyunlar uşaqların davranışını cilalayır, təxəyyülünü və yaradıcılığını inkişaf etdirir. Bu, əsasən ətraf aləmlə tanışlığa aid məsələlərin tədrisində daha çox istifadə oluna bilər.

Ənənəvi bilikyönlü yanaşmadan fərqli olaraq şəxsiyyətyönlü yanaşmada təlimin məzmunu bütövlükdə şəxsiyyətin inkişafı onun təbii xüsusiyyətlərinə (sağlamlığına, qabılıyyətinə və s.), sosial keyfiyyətlərinə (vətəndaşlığına, liderlik bacarığına) və mədəni xüsusiyyətlərinə (təfəkkür azadlığı, humanistliyi, mənəvi dəyərlərə münasibəti, yaradıcılığı) yönəlir.

Ehtiyat dərsliklərin əsasən, təbiətəmüvafiqlik prinsipi əsasında işlənməsi əhəmiyyətlidir. Daha doğrusu, şagirdlərin dərketmə, ünsiyyət, müxtəlif fəaliyyətinə olan tələblərə cavab verməlidir, onların fərdi xüsusiyyətlərini və sosiallaşma səviyyəsini nəzərə almalıdır. 1-ci yarımildə təlim prosesini inteqrativ qurmaqla yanaşı, oyunlardan daha çox istifadə etmək məsləhətdir. Bu dövrdə fənlərin metodikası uşaqların yaş dövrünə müafiq olaraq əyani-obrazlı təfəkkürün inkişafı əsasında işlənilir. Ona görə də uşaqların Niyə?, Nə üçün?, Necə edim? suallarına cavabın məhz dərsliklərdə öz əksini tapması məqsədəuyğun hesab edilir.

Dərsliklərdə dövlət standartlarının nəzərə alınması şagirdlərdə zəruri bilik, bacarıq, vərdişlərin və mənəvi dəyərlərin formalaşması imkanlarını sübut edir. Bu imkanlar sırasında ətraf təbiət və sosial mühitə adaptasiya olunmaq,

müxtəlif fəaliyyət növlərini mənimsəmək, etik normaların dərk olunmasına şəxsiyyətyönlü yanaşma və digər məsələlər də göstərilə bilər.

Ehtiyat dərsliklər hazırlanarkən ilk növbədə qabaqcıl beynəlxalq təcrübə, intellektin çoxşaxəli nəzəriyyəsindən irəli gələn tələblər də nəzərə alınır.

İntellektin çoxşaxəli nəzəriyyəsi birinci dəfə 1983-cü ildə amerikalı psixoloq H.Qardnerin "Əqlin strukturu: intellektin çoxşaxəli nəzəriyyəsi" kitabında şərh edilmişdir. Onun fikrincə, insan yalnız ümumi intellektə deyil, bununla yanaşı müstəqil qabiliyyətlərə malikdir. Müəllifin fikrincə, verbal-linqvistik, musiqi, fəza, kinestetik, şəxsiyyətyönlü və şəxsiyyətlərarası qabiliyyətlər intellektin meyarlarıdır.

İntellektin hər bir tipi özünü spesifik istedad, vərdiş və maraqlar vasitəsi ilə büruzə verir. Hər bir intellekt tipinin inkişafının gücləndirilməsi uşaqların təlim metodlarının əhəmiyyətindən və təlim prosesinin qurulmasından asılıdır ki, onlar öz maraq və imkanlarına müvafiq öyrənsinlər və uğurlu nəticə əldə etsinlər. H.Qardnerin fikrincə, zəka – problemləri həll etmək, yaxud müəyyən və ya bir neçə mədəniyyətdə dəyər yaratmaq qabiliyyətidir:

**1. Verbal-linqvistik zəka** (oxumağı sevir, şifahi yaddaşa malikdir, zəngin söz ehtiyatına malikdir, bəstələməyi sevir və s.). Bu, şairlərdə, yazıçılarda və natiqlərdə güclü şəkildə inkişaf etmişdir.

**2. Məntiqi və riyazi zəka** (ədədləri saymağı və işləməyi sevir, riyazi anlayışları bilir, məntiqi çalışmaları və bulmacalar həll etməyi, şahmat oynamağı xoşlayır, yaşıdları ilə müqayisədə daha mücərrəd səviyyədə düşünür, səbəb və nəticə əlaqələrini başa düşür). Bir insan böyüdükcə riyazi bacarıqları ilə inkişaf edir.

**3. Vizual-məkan zəkası** (mətnlərdən fərqli olaraq vizual şəkillərlə daha asan düşünür, xəritələr, qrafiklər, diaqramlar oxuyur; fantaziyalara qapılmağı və sənətlə məşğul olmağı sevir; yaxşı rəsm çəkir; maraqlı modellər qurur; oxuyanda sözlərdən yox, illüstrasiyalardan daha çox məlumat alır). Hislərdən, vizual qavrayışdan və cisimləri görüntü ilə təsvir etmək qabiliyyətindən asılı olaraq, bu zəka növü özündə daxili əqli obrazlar, təsəvvürlər yaratmaq qabiliyyətlərini ehtiva edir. Bu cür zəka sənətkarlar, heykəltəraşlar, memarlar, ixtiraçılar və şahmatçılar arasında yaxşı inkişaf etmişdir.

**4. Motor-hərəki zəka** (yüksək idman nəticələrini göstərir; jestləri, üz ifadələrini, başqalarının davranışlarını uğurla təkrar edir; cisimləri söküb yenidən yığmağı sevir; əlləri ilə gördüyü hər şeyə toxunur; qaçmağı, hoppanmağı sevir; sənətkarlıq qabiliyyətini nümayiş etdirir). Bu cür zəka, fiziki hərəkətlərə və bədənin əzələ hərəkətlərinə cavab verən beyin qabığı da daxil olmaqla, bədənin bilik hikmətinə aiddir. Bu, təcrübə ilə əldə edilir və ən çox rəqqasələr, aktyorlar və idmançılar arasında inkişaf edir.

**5. Musiqili-ritmik zəka** (mahnıların melodiyalarını xatırlayır; yaxşı səsə malikdir; musiqi alətində çalır, xorda oxuyur;

ritmik manera ilə hərəkət edir və danışır; masaya ritmik vurur, bir şey edir). Bu zəka növü ətrafdakı səslər və ritm hissi də daxil olmaqla, musiqi obrazlarının tanınmasına əsaslanır. Bu növ zəka bəstəkarlar, musiqiçilər, müğənnilər və rəqqasələrdə güclü inkişaf etmişdir.

**6. Şəxsiyyətlərarası zəka** (yaşıdları ilə ünsiyyət qurmağı sevir; müxtəlif situasiyalarda liderlik qabiliyyəti nümayiş etdirir; digər uşaqlar ilə oynamağı və öyrətməyi sevir; empatik olmağı, başqalarına qayğı göstərməyi bacarır; digər uşaqlar onun qrupuna can atır). Bu zəka tipi, əsasən, şəxsiyyətlərarası ünsiyyətdə özünü büruzə verir, kollektivdə əməkdaşlıq əsasında işləmək bacarığını, eyni zamanda digər insanlarla həm verbal, həm də qeyri-verbal ünsiyyət qabiliyyətini nəzərdə tutur. Keşişlər, siyasətçilər və diplomatlar bu istiqamətdə daha çox inkişaf edən adamlardır.

**7. Şəxsiyyətdaxili zəka** (müstəqillik hissini, iradə hissini nümayiş etdirir; özünün üstünlüklərini və mənfi cəhətlərini dərk edir; ona heç kim mane olmadığı halda vəzifələrini yaxşı yerinə yetirir; özünü idarə etməyi bilir; tək işləməyi üstün tutur; hisslərini dəqiq təsvir edir; öz səhvləri üzərində öyrənir; öz şəxsiyyətini qorumağa dərin hissləri vardır). Bu zəka növü insanın öz şəxsiyyətini dərk etməyə, geriyə çəkilərək kənardan xarici müşahidəçi kimi özünə baxmağa imkan verir. Psixoloqlar, müəllimlər və pedaqoqlar bu zəka növündə ən yüksək keyfiyyətlərə nail olurlar.

**8. Təbiətşünas zəkaya** malik olan insan təbiətə, təbiət hadisələrinə, heyvanlara, bitki örtüyünə maraq göstərir,

təbiət aləmini anlamaq, ətraf mühitin əlamətlərini və xüsusiyyətlərini ayırd etmək, təsnif etmək və s. qabiliyyətlərini nümayiş etdirir.

Beləliklə, ehtiyat dərsliklər tərtib edilərkən şagirdlərdə müstəqil qabiliyyətlərin inkişafını təmin edən materialların daxil edilməsinə önəm verilməlidir. Bu işdə müəllimlərin də material seçimi uşaqları yaxından tanıması ilə bağlıdır. Ehtiyat dərsliklərdə təbiətəmüvafiqlik prinsipi əsas prinsip kimi reallaşmalıdır. Daha doğrusu, bu yaş dövründə olan şagirdlərin tələblərini (ünsiyyətdə, idrak prosesində, müxtəlif fəaliyyətdə) təmin etməli, fərdi xüsusiyyətlərini və sosiallaşma səviyyəsini nəzərə almalıdır.

Bu baxımdan birinci sinif şagirdlərinin məktəbə adaptasiya dövrünün rahat keçməsi üçün müəlliflər inteqrativ dərslərə, rollu oyunlara daha geniş yer verməli, əyani-obrazlı təfəkkürün inkişafını təmin etməli və beləliklə, hər bir şagirdin fərdi qaydada uğur əldə etməsinə imkan verən situasiyalar təqdim etməlidirlər. Bu iş evdə də davam etdirildiyindən ehtiyat dərsliklərdə valideynlər üçün də tapşırıqların verilməsi əhəmiyyət kəsb edir.

# NƏTİCƏ

1. Araşdırmalar göstərdi ki, hər zaman olduğu kimi müasir dövrdə də tədrisin səmərəliliyinin artırılması üçün konseptual ideyaların tədqiqi, bu ideyaların tətbiq olunması, fənn müəllimlərinə çatdırılmasına böyük ehiyac vardır.

2. Tədqiqat göstərdi ki, ehtiyat dərsliklərin yazılması üçün ilk növbədə dərslik konsepsiyasının hazırlanması mühüm pedaqoji şərt hesab edilir. Bu baxımdan "İbtidai siniflər üçün Azərbaycan dili və riyaziyyat üzrə ehtiyat dərslik konsepsiyası"nın hazırlanması elmi-pedaqoji əhəmiyyət kəsb edir.

3. Keyfiyyəti tədris prosesində sınaqdan çıxarılan yeni dərsliklər eksperimental dərsliklər sayılır. Mövcud, ənənəvi dərsliklərin keyfiyyəti qənaətbəxş sayılmadıqda, o zaman həmin eksperimental dərsliklər ehtiyat dərsliklər kimi istifadəyə verilir. Müvafiq konsepsiyaya uyğun hazırlanmış ehtiyat dərsliklər və dərslik komplekti fənn müəllimi üçün metodik istiqamət kimi  dəyərli hesab edilir.

4. Ehtiyat dərslik komplekti ənənəvi dərslik komplektindən fərqli olaraq dərslik, müəllimlər üçün metodik vəsait və valideynlər üçün  tövsiyələri də nəzərdə tutur.

5. Tədqiqat göstərdi ki, ehtiyat dərsliklər ənənəvi dərsliklərdən məzmun və metodologiya baxımından fərqlənir. Ənənəvi dərsliklərdən fərqli olaraq ehtiyat dərsliklərdə şagirdyönlülük daha qabarıq verilmişdir. Bu dərsliklərlə işləyən müəllim əvvəlki illərdə olduğu kimi dərslik məlumatlarının

şagirdlərə ötürülməsinə deyil, onların müstəqil işinin təşkilinə daha çox diqqət yetirə bilir.

6. Araşdırmalar göstərdi ki, ehtiyat dərsliklər təlimin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin idraki, həyati bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayır. Ənənəvi dərslikdən fərqli olaraq ehtiyat dərsliklər şagirdlərin təlim nəticələrinin yüksəlməsinə, müəllimlərin peşə səriştəliliyinin daha ciddi inkişafına əlverişli zəmin yaradır. Bu baxımdan ehtiyat dərsliklərdə beynəlxalq qiymətləndirmələrdə nəzərə alınan bacarıqların inkişaf etdirilməsinə nisbətən daha çox yer ayrılması elmi-pedaqoji əhəmiyyət kəsb edir.

7. Ehtiyat dərsliklərin fərqli cəhətləri kimi oxunaqlılığı, görünüşü, dizaynı ilə də şagirdlərin motivasiyasının formalaşdırılması və yüksəldilməsində xüsusi rol oynayır.

8. Ümumtəhsil məktəbləri üçün ehtiyat dərsliklər hazırlanarkən onun ciddi pedaqoji problem kimi qəbul edilməsi, pedaqoji xüsusiyyətlərinin nəzərə alınması mükəmməl tədris vəsaiti olaraq təlim-tərbiyəvi təsir gücünü artırır.

9. Ehtiyat dərsliklərin qəbul edilmiş müvafiq mexanizmə uyğun mərhələlər üzrə hazırlanması məqsədəuyğundur:

- müəllif seçimi: ilk mərhələdə Elm və Təhsil Nazirliyinin verdiyi elan əsasında müəlliflərin seçilməsi üçün müəllimlər arasında müsabiqənin keçirilməsi və dərsliklərin yazılması işinə ali məktəb müəllimlərinin, tədqiqatçı alimlərin (nəzəriyyəçilər, pedaqoqlar, metodistlər) də cəlb olunması;
- ehtiyat dərsliklərin konsepsiyasının hazırlanması;
- məzmunun təkmilləşdirilməsi;

- dərslik kompleksinin hazırlanması;
- sınaq prosesi.

10. Tədqiqat göstərdi ki, ibtidai siniflər üçün ehtiyat dərsliklərdə (Azərbaycan dili və riyaziyyat) şagirdlərin qavrama, anlama, tənqidi düşünmək və riyazi bacarıqlarının inkişafı üçün geniş imkanlar vardır.

11. Ehtiyat dərsliklərin məzmunu şagirdlərin özlərinə inamının artırılmasına, fənnə dəyər verməyə xidmət edən mənəvi keyfiyyətlərin formalaşmasına zəmin yaradır. Həmin keyfiyyətləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- fənnin öyrənilməsinə həvəslənmək;
- fənnin məzmununa uyğun bilik və bacarıqlara yiyələnməklə özünəinamı formalaşdırmaq;
- problemin həlli zamanı səbrli olmağı öyrənmək;
- bu və ya digər fənnin hər kəs tərəfindən öyrənilməsinin mümkünlüyünü dərk etmək;
- real həyatda fənnin əhəmiyyətini göstərməyi bacarmaq;
- dərsdənkənar vaxtlarda da fənnin məzmununu, mahiyyətini əks etdirən elm sahələri ilə məşğul olmaq istəyinin oyanması;
- fənnə uyğun əldə etdiyi nəzəri bilikləri praktik fəaliyyətində tətbiq etmək həvəsi;
- hər bir fənnə aid elm sahəsinin elm və texnologiyanın inkişafındakı rolunu dərk etmək, onu əsaslandırmağı, təbliğ və təqdir etməyi bacarmaq;

• fənlərin estetik və əyləncəli xüsusiyyətlərini müəyyən etmək;

• fənlərin kreativ təfəkkürün, analitik düşüncənin formalaşmasında, məntiqi qərarların verilməsində rolunu göstərmək.

Sadaladığımız mənəvi keyfiyyətlər həqiqətən, şagird şəxsiyyətinin mükəmməl şəkildə formalaşması üçün olduqca vacibdir. Əlbəttə, burada fənn müəlliminin də xüsusi rolu vardır. Lakin təcrübə və tədqiqatlar təsdiq edir ki, formalaşdırılacaq bilik, bacarıqlar, dəyər kimi qəbul etdiyimiz mənəvi keyfiyyətlər ilk növbədə təlimin məzmununun necə müəyyənləşdirilməsindən xeyli dərəcədə asılıdır. Bu baxımdan dərsliklərin məzmunu mənəvi keyfiyyətlərin formalaşdırılması üçün əlverişli imkanlar yaratmalıdır.

12. Ehtiyat dərsliklər təkcə şagird və müəllimlərin deyil, həm də valideynlərin təhsil prosesinin fəal iştirakçısına çevrilməsində, onların pedaqoji maarifləndirilməsində mühüm rol oynayır. Bu da onunla bağlıdır ki, ehtiyat dərslik kompleksində valideynlər üçün də tövsiyələr verilmişdir. Həmin tövsiyələrlə tanış olan valideynlər mövzu ilə bağlı müəyyən məsələlərin öyrənilməsində, izah edilməsində evdə övladlarına kömək edə bilir, onların gündəlik həyat tərzini tənzimləmək imkanları əldə edirlər. Bu da şagirdin dərsə daha ciddi, məsuliyyətli yanaşmasına təsir göstərir, onun dərsə hazırlıq səviyyəsini yüksəldir.

Araşdırmaların nəticəsi kimi aşağıdakı təkliflərin nəzərə alınması məqsədəuyğundur:

13. Ayrı-ayrı fənlər üzrə dərsliklərin konsepsiyası ilə bərabər ümumtəhsil pilləsi üzrə bütün fənlər üçün yeni dərslik konsepsiyasının hazırlanması yaxşı olardı.

14. Siniflər və fənlər üzrə hər bir dərslik mətninin həcmi ilə bağlı müvafiq normaların müəyyənləşdirilməsi, mətnlərin statistik ölçülməsini təmin edən qaydaların yaradılması və buna uyğun elmi-statistik ölçmə ilə bağlı alətlərin hazırlanaraq tətbiqi mühüm məsələlərdən biridir. Həmin alətlərin köməyi ilə verilmiş mətnin çətinlik dərəcəsinin ölçülməsi təlim materialının dərsliyə hansı həcmdə salınması işində böyük rol oynayır. Beynəlxaq təcrübəni, elmi-pedaqoji tələbləri nəzərə alaraq bu istiqamətdə fəaliyyətin davamlı olaraq inkişaf etdirilməsi vacibdir.

15. Ehtiyat dərsliklərlə işləyən müəllimləri müasir innovasiyalarla tanış etmək, onların nəzəri və praktik hazırlığını, peşə səriştəliliyini ardıcıl və sistemli şəkildə inkişaf etdirmək üçün ixtisasartırma təlimlərinə, elmi-pedaqoji seminarlara cəlb olunması, dərslərində müşahidələr aparılması, monitorinqlərin keçirilməsi vacibdir.

16. Ehtiyat dərsliklər hazırlanarkən müasir pedaqoji, psixoloji və sosial elmlərin nailiyyətləri, məktəb təcrübəsinin nəticələri nəzərə alınaraq, şagirdlərin milli-mənəvi ruhda və şəxsiyyətyönümlü tərbiyəsinə istiqamətlənməsi məsələsi həmişə diqqətdə saxlanılmalıdır.

17. Pandemiya dövründə uşaqlara özünü və ətrafındakı insanları müxtəlif yoluxucu xəstəliklərdən qorumağın yollarına dair zəruri  materiallar və şəkillərin verilməsi vacibdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası// Azərbaycan məktəbi.- 2013, №5, səh. 6-17.

2. Abbasov A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərslik / Bakı: Mütərcim, 2009. 348 s.

3. Abbasov Ə.M. Müasir Azərbaycan dili dərsliklərinə verilən başlıca tələblər // "Tədris Prosesinin Təkmilləşdirilməsinin Pedaqoji-Psixoloji Problemləri" mövzusunda beynəlxalq konfransın materialları, Naxçıvan. 2011.

4. Abbasov Ə.M. Azərbaycan dili dərsliklərinin hazırlanması prinsipləri //Respublika elmi konfransının materialları, Bakı: 28 iyun, 2012, səh. 14-16.

5. Abbasov Ə.M. Azərbaycan dili dərsliklərinin funksiyaları // "Müəllim hazırlığı strateji hədəflərdən biri kimi" mövzusunda Respublika Elmi Konfransının materialları,- Bakı: 18 iyun,- 2018, səh. 62-64.

6. Abbasov, Ə.M. Ana dili dərslikləri necə olmalıdır? // Məktəbəqədər və ibtidai təhsil,- 2019. № 3, səh.15-19.

7. Ehtiyat dərsliklər təhsilin keyfiyyətini daha da yüksəldəcək [Elektron resurs]. https://aztehsil.com/news/8381-ehtiyat-derslikler-tehsilin-keyfiyyetini-daha-da-yukseldecek. html

8. Ehtiyat və ya alternativ dərsliklərə ehtiyac var? [Elektron resurs]. https://aztehsil.com/6230-ehtiyat-v-ya-alternativ -drsliklr-ehtiyac-ar.html).

9. Ümumtəhsil məktəblərinin I sinfi üçün riyaziyyat fənni üzrə dərsliyin metodik (sınaq məqsədilə çap olunub) vəsaiti / G.Hüseynzadə, S. Abdullayeva, İ.Rüstəmova. - Bakı: Çaşıoğlu, -2019. 176 s.

10. İbtidai siniflər üçün Azərbaycan dili və riyaziyyat fənləri üzrə ehtiyat dərslik konsepsiyası /Azərbaycan Respublikasının Təhsil İnstitutu Tədris Resursları Mərkəzi- Bakı: 2016-2018. 108 s.

11.Riyaziyyat. Dərslik.Ümumtəhsil məktəblərinin I siniflərində sınaq məqsədilə çap edilmişdir. I hissə / M. Məhərrəmov, G. Hüseynzadə, S. Abdullayeva[və b.] -Bakı: Tədris Resursları Mərkəzi, Çaşıoğlu, 2019. 92 s.

12. Riyaziyyat. Dərslik.Ümumtəhsil məktəblərinin I siniflərində sınaq məqsədilə çap edilmişdir. II hissə/M. Məhərrəmov, G. Hüseynzadə, S. Abdullayeva [və b.] - Bakı: Tədris Resursları Mərkəzi, Çaşıoğlu, 2019.76 s.

13. Riyaziyyat. İş dəftəri.Ümumtəhsil məktəblərinin I siniflərində sınaq məqsədilə çap edilmişdir. I hissə/M.Məhərrəmov, G.Hüseynzadə, S.Abdullayeva [və b.] - Bakı: Tədris Resursları Mərkəzi, Çaşıoğlu, 2019. 84 s.

14. Riyaziyyat. İş dəftəri.Ümumtəhsil məktəblərinin I siniflərində sınaq məqsədilə çap edilmişdir. II hissə/M.Məhərrəmov, G.Hüseynzadə, S.Abdullayeva [və b.] - Bakı: Tədris Resursları Mərkəzi, Çaşıoğlu, 2019. 72 s.

15. Məktəb tədris resursları nəzəri-praktik aspektdə / elmi redaktor F. Şahbazlı -Bakı: Mütərcim, -2018. 188 s.

16. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin I siniflərində sınaq məqsədilə çap edilmiş dərslik.I hissə / Ü.Nurullayeva, N.Allahverdiyeva, İ.Bayramova [və b.] -Bakı: Tədris Resursları Mərkəzi, Çaşıoğlu, 2019. 96 s.

17. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin I siniflərində sınaq məqsədilə çap edilmiş dərslik. II hissə / Ü.Nurullayeva, İ.Bayramova, Ş.Zahidova [və b.] - Bakı: Tədris Resursları Mərkəzi, Çaşıoğlu, 2019. 80 s.

18. Azərbaycan dili (dövlət dili kimi). Ümumtəhsil məktəblərinin I siniflərində sınaq məqsədilə çap edilmiş dərslik/Ü. Nurullayeva, A.Rüstəmova- Bakı: Tədris Resursları Mərkəzi, Çaşıoğlu, -2019. 72 s.

19. Azərbaycan dili (dövlət dili kimi). Metodik vəsait. Ümumtəhsil məktəblərinin I siniflərində sınaq məqsədilə çap edilmiş dərsliyin metodik vəsaiti / Ü. Nurullayeva, A. Rüstəmova - Bakı: Tədris Resursları Mərkəzi, Çaşıoğlu, 2019. 88 s.

20. Azərbaycan dili (dövlət dili kimi). İş dəftəri. Ümumtəhsil məktəblərinin I siniflərində sınaq məqsədilə çap edilmiş dərsliyin iş dəftəri / Ü. Nurullayeva, A. Rüstəmova - Bakı: Tədris Resursları Mərkəzi, Çaşıoğlu, -2019. 72 s.

21.“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. // Təhsil xəbərləri, -Bakı:- 2009, № 6, - səh.12-57

22. Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydaları. Dərsliklərin hazırlanması qaydası müəyyənləşdi.

Qərar. [Elektron resurs].https://report.az/elm-ve-tehsil/dersliklerin-hazirlanmasi-qaydasi-mueyyenlesdi/26Fevral, 2020, 20:51

23. Ümumi təhsil sistemində dərslik siyasəti. 23.01.-2006-cı il tarixli 33 nömrəli əmrlə təsdiq olunub. [Elektron resurs]. http://www.edu.gov.az/upload/file/derslik-siyaseti/umumtehsil-sisteminde-derslik-siyaseti-y.pdf

24. Бим-Бад, Б.М. Педагогический энциклопедический словарь. -М.,2002.С.301

25. Гарднер, Г. Структура разума: теория множественного интеллекта. – М. ООО «И.Д. Вильямс», - 2007. – 512 с.

26. Граник, Г.Г. Психолого-дидактические основы учебников нового типа по курсу «Русская филология» // Мир психологии.-2007. № 2. С.167– 180. № 3. С.115–131.

27. *Краевский, В.В.* Основы обучения. Дидактика и методика: учеб. пособие для студ. высш. учеб. заведений / В.В. Краевский, А.В. Хуторской. – М.: Издательский центр «Академия», 2007.– 352 с. URL: http://www.fundamental-research.ru/ru/article/view?id=31412 (дата обра щения: 02.06.2020).

28. Кузнецов, А.А.,Чернобай, Е.В. Современный учебно-методический комплекс: требования и критерии оценки школъной учебной литературы // Педагогика. Научно-теоретический журнал Российской академии образования. №2, -2017, с.25-36.

29 Кусаинов, А.К. Оценка качества современной учебной литературы // Журнал ценности и смысли. 2019, №1 (59) с.8-19 [электронный ресурс]. https://cyberleninka.ru/article/n/otsen_ka-kachestva-sovremen noy-uchebnoy-literatury

30. Математика. Учебник издано с целъю апробации для 1-го класса общеобразователъных щкол. Частъ- 1,2 / М.Магеррамов, Г. Гусейнзаде, С.Абдуллаева [и др]- Баку: Центр Образователъных Ресурсов. Çaşıoğlu, -2019/- 77 с.

31.Попов, С.В. Проблемы повышения качества электронных учебников // Фундаментальные исследования. – 2013. – № 6-1. – С. 51-54;

32. Якущев, М.В. Типологические особенности учебника как вида учебного издания. Ученые записки орловского университета. № 4 (60), -2014 [электронный ресурс]. https:// cyberleninka.ru/article/n/tipolo gicheskie -osoben nosti-uchebnika - kak-vida-uchebnogo-izdaniya.

33.http://dmee.ru/docs/100/index-[электронный ресурс].

34.html://https://www.trims.edu.az/site/resource.php ?id=859[электронный ресурс].

35.https://www.trims.edu.az/site/resource.php?id=86 5[электронный ресурс].

36.https://www.trims.edu.az/site/resource.php?id=98 4[электронный ресурс].

37.https://www.trims.edu.az/site/resource.php?id=10 51[электронный ресурс].

*Kitab “CN POLİGRAFİYA” Məhdud Məsuliyyətli Cəmiyyətində*
*səhifələnmiş və çap olunmuşdur.*

___________________________________________

Çapaimzalanıb: 01.12.2022
Format: 70x100 1/16. Həcmi: 3,0 ç.v. Tiraj: 965.
Sifariş *№ 42*.

AZ 1006, BAKI, Nərimanov rayonu, K. Rəhimov küçəsi 865,
bina 22c, mənzil 3
Tel./faks: (012)4652471
*e-mail: cn_poliqraf@mail.ru*